18 oktyabr 2023 №77 (2046)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Bu bayraq burada əbədi dalğalanacaq"



Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

Prezident İlham Əliyev bu sözləri oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində bildirib.

Prezident deyib: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq...".

*davamı səh. 2-də*

## Füzuli Şəhəri Günü – azad eldə ilk bayram şöləni

Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sərəncama əsasən, 17 oktyabr Füzuli Şəhəri Günüdür.

Bu münasibətlə Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonunda xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə oktyabrın 17-də Füzulidə təntənəli şəhər günü tədbiri keçirilib.

Tədbirdə dövlət və hökumət rəsmiləri, millət vəkilləri, diplomatik korpusun nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli Şəhəri Günündə bu ilin avqustundan doğma yurdlarına qayıtmış bir qrup Füzuli sakini ilə görüşüb səmimi söhbət edib.

Sonra Füzuli Şəhəri Gününün geniş qala-konserti təqdim edilib. Tanınmış incəsənət ustalarının ifasında xalq və bəstəkar mahnıları səsləndirilib.








Dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr olunmuş "Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!", "Ümummilli lider Heydər Əliyev və Füzuli", "Füzuli rayonu – işğaldan öncə və işğaldan sonra" adlı, həmçinin Füzuli ərazisindəki Yedditəpə kurqanları arxeoloji abidəsindən aşkar edilmiş maddi mədəniyyət nümunələrinin yer aldığı sərgilərlə tanışlıq olub.

*davamı səh. 2-də*

## TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının iclası




Oktyabrın 13-14-də Şuşada TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı iclası keçirilib. Tədbir Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə gerçəkləşib.

Toplantıda TÜRKSOY-un fəaliyyəti, Daimi Şuranın 39-cu iclasından ötən bir ildə görülən işlər nəzərdən keçirilib, 2024-cü il üçün planlar açıqlanıb, müvafiq qərarlar qəbul edilib.

Sonda mədəniyyət naziri Adil Kərimli, TÜRKSOY-un baş katibi Sultan Raev və quruma üzv olan ölkələrin nümayəndələri tərəfindən iclasda alınan qərarlarla bağlı sənədlərə imzalar atılıb.

2024-cü ildə Türkmənistanın Anev şəhəri "Türk dünyasının mədəniyyət paytaxtı" olacaq. 2025-ci ildə isə bu estafeti Qazaxıstanın Aktau şəhərləri qəbul edəcək.

*səh. 3*

## Şuşa Türk dünyası mədəniyyətinin cazibə mərkəzinə çevrilir

Xəbər verdiyimiz kimi, 13-14 oktyabr tarixlərində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un və Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə Şuşa şəhərində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə I Türk Dünyası Mədəniyyət Forumu keçirilib. Forumda rəsmi şəxslər, Türk dünyası təşkilatlarının nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Oktyabrın 13-də forumun açılış mərasimində əvvəlcə "Türk dünyasının mədəniyyət paytaxtı" Şuşaya həsr olunmuş videoçarx nümayiş etdirildi, "Dərvişlər" adlı ədəbi-bədii kompozisiya təqdim olundu.

Açılış nitqi söyləyən Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli qeyd etdi ki, I Türk Dünyası Mədəniyyət Forumunun Şuşada keçirilməsi əlamətdar hadisədir: "Forum bütün türk mədəniyyəti üçün xüsusi əhəmiyyət kəsb edir. Bu gün Şuşamız, Qarabağımız, bütün Azərbaycan öz Zəfər təntənəsini yaşayır. Artıq üçüncü ildir Şuşada geniş quruculuq işləri həyata keçirilir. Ötən ay – 19-20 sentyabr tarixlərində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuz cəmi 24 saat ərzində Qarabağdakı Ermənistana məxsus qanunsuz hərbi birləşmələrin terror əməllərinə birdəfəlik son qoydu. Bununla da Azərbaycan bütün ərazisində suverenliyini təmin etmiş oldu. Azərbaycan təkcə Cənubi Qafqaz regionunda deyil, bütün dünyada sülhün, sabitliyin tərəfdarı kimi çıxış edir, bu istiqamətdə əməli addımlar atır".



Forumun əhəmiyyətini yüksək qiymətləndirən nazir bildirdi ki, ortaq türk mədəniyyətini dünyaya təbliğ etmək üçün belə bir platforma vacib idi: "Düşünürük ki, forum qardaş xalqlarımızın mədəni əməkdaşlığının dərinləşməsində, qədim mirasımızın qarşılıqlı şəkildə təbliğatına öz töhfəsini verəcək. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev türk xalqlarının birliyi uğrunda yorulmadan çalışıb. Məhz buna görə də forumun Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr edilməsi təsadüfi deyil".

TÜRKSOY-un baş katibi Sultan Raev növbəti dəfə Şuşaya gəlişindən məmnunluğunu bildirdi. Qeyd etdi ki, Şuşa Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli, Bülbül və s. kimi neçə-neçə söz-sənət xadiminin evidir: "Şuşa həm də bu il "Türk dünyasının mədəniyyət paytaxtı"dır. Şuşa Azərbaycandır! Şuşa Türk dünyasıdır!".

Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyev çıxışında qeyd etdi ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsi bütün Türk dünyası üçün böyük önəm daşıyır. O, türk dövlətlərinin dil və mədəniyyət baxımından ümumi köklərə malik olduğunu qeyd edərək əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

*davamı səh. 4-də*

## Lənkərandan gələn "Cəmilə" Bakıda qonaq olub



Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) "Qonaq teatr" layihəsi davam edir. Oktyabrın 16-da Lənkəran Dövlət Dram Teatrı Çingiz Aytmatovun "Cəmilə" əsəri əsasında hazırlanan romantik dramı ATXİ-nin səhnəsində tamaşaçılara təqdim etdi.

Lənkəran Dövlət Dram Teatrının bərpasının 50 illiyi münasibətilə paytaxt səhnəsində oynanılan tamaşanın quruluşçu rejissoru İmran Ali Qurban, quruluşçu rəssamı Tərlan Sadıqov, bəstəkarı Azər Hacıəsgərlidir.

*davamı səh. 2-də*

## Qardaş xalqlar incəsənətinin təntənəsi

Bəşər tarixində qədim-qayım yeri olan, dünya xəritəsində əhəmiyyətli bir coğrafiyanı əhatə edən böyük türk ulusu çağdaş zamandakı rolunu və mövqeyini yenidən və daha geniş şəkildə isbat edir. İstər siyasi, istər iqtisadi, istərsə də mədəni köklər baxımından bəşər övladının istinad etdiyi nöqtələrdə türklərin, türkçülüyün səsi, sözü, izi görünür.

Bu xüsusda türk xalqlarının zəngin mədəni irsi və incəsənəti də, əsrlər öncə olduğu kimi, yenə dünya mədəniyyəti palitrasına parlaq rənglər bəxş edir. Bu mədəni zənginliyin yaşadılması, bütün dünyaya və eyni zamanda qardaş xalqlar olaraq özümüzə də daha yaxından və geniş şəkildə təbliği, tanıdılması missiyasını yerinə yetirən TÜRKSOY – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı bu il 30 yaşını bayram edir. Əlamətdar yubiley təşkilata üzv dövlətlərdə silsilə tədbirlər, möhtəşəm konsert proqramları ilə qeyd olunur.

Türk mədəniyyətinin təntənəsi olan belə möhtəşəm mərasimlərdən biri oktyabrın 15-də Bakıda, özü də Azərbaycan xalqının tarixində bundan sonra əbədi qalacaq bir gündə gerçəkləşdi.

Həmin gün xalqımız üçün, dövlətimiz üçün tarixi gün idi. Müzəffər Ali Baş Komandan



İlham Əliyev tarixi Zəfərimizin davamı olaraq cənnət Qarabağımızın şah şəhəri – Xankəndidə üçrəngli bayrağımızı ucaltdı, doğma xalqa müraciət etdi.

Hamılıqla bu böyük günün qürurunu bir də Heydər Əliyev Mərkəzində – Türk dünyasını bir araya gətirib, onun zəngin mədəniyyəti və dəyərlərinin qoruyucusu və təbliğçisi olan TÜRKSOY-un yubiley konsertində yaşadıq.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə TÜRKSOY-un 30 illiyinə həsr olunmuş "Biz birlikdəyik" adlı qala-konsert bu böyük günün bəşəri musiqi ladlarında ifadəsi kimi də ayrı bir əzəmətdə idi.

Bədii proqramdan öncə təşkilatın keçdiyi zəngin yolun qısa videoçarxını izlədik. 30 ildə keçilən yol, gerçəkləşən layihələr, sənət tədbirləri, birliyimizin, bərabərlik və tarixi bağlılığımızın göstəricisi olan işlərin qısa xronikası bu illərin heç də əbəs olmadığının sübutu idi.

*davamı səh. 3-də*

### "Şuşa Türk dünyasının mədəniyyət paytaxtı" beş dildə




*səh. 6*

### XVIII Bakı Beynəlxalq Caz Festivalı yekunlaşıb

*səh. 3*

### Bakıda Şimali Kiprin mədəniyyət və tanıtım günləri



*səh. 8*

№77 (2046)
18 oktyabr 2023
www.medeniyyet.az

# “Bu bayraq burada əbədi dalğalanacaq”

## 15 oktyabr Xankəndi, Xocavənd, Ağdərə və Xocalının Azərbaycanın şəhərləri kimi bayrağımıza büründüyü gün kimi təqvimə yazıldı

əvvəli səh. 1-də

Dövlət başçısı vurğulayıb ki, bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi: “Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu...”.

İlham Əliyev qeyd edib ki, bu gün burada – Xankəndidə olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır: “Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Vətən müharibəsi cəmi 44 gün çəkdi... Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün, nə üçün biz o vaxt – noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada dayanarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da – noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan bayrağıdır...

Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. Bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər”.







“Ulu öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır” deyən Prezident İlham Əliyev vurğulayıb ki, Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi, eləcə də SSRİ rəhbərliyində olduğu 18 il ərzində Qarabağda, o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətində kimsə Azərbaycanın suverenliyinə qarşı çıxmağa cürət etməmişdi. Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. 1987-ci ilin oktyabrında Heydər Əliyev SSRİ rəhbərliyində vəzifəsindən kənarlaşdırıldı, iki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. “Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar...”, – deyə İlham Əliyev vurğulayıb.

Prezident qeyd edib ki, 1993-cü ildə Azərbaycanın müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldığı vaxtda yenə Heydər Əliyevin dühası Azərbaycan xalqının dadına yetişdi və biz haqlı olaraq onu Xilaskar adlandırırıq.

İlham Əliyev 20 il əvvəl Ulu öndər Heydər Əliyevin dövlətçilik yolunun davamçısı kimi Azərbaycan xalqına verdiyi sözü yerinə yetirdiyini vurğulayıb: “Biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik”.

Azərbaycan bayrağının bütün Qarabağda, Xankəndidə dalğalandığını deyən dövlətimizin başçısı bildirib ki, əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın.

Prezident müraciətini bu sözlərlə yekunlaşdırıb: “Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

***

Qeyd edək ki, oktyabrın 15-də Prezident İlham Əliyev Xocavənd və Ağdərə şəhərlərində, eləcə də Sərsəng su anbarının ərazisində Azərbaycanın bayrağını ucaldıb. Xocavənd şəhəri 1992-ci il oktyabrın 2-də, Ağdərə şəhəri 1993-cü il iyunun 27-də erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Hər iki şəhər 2023-cü il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.

Prezident həmçinin 2020-ci ilin oktyabrında işğaldan azad edilən Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışında iştirak edib. Suqovuşan su anbarı təmir-bərpadan sonra istifadəyə verilib.

İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində və Şuşa rayonunun Malıbəyli kəndində də olub. 1991-ci il dekabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Kərkicahan və 1992-ci il fevralın 11-də işğal edilmiş Malıbəyli bu il sentyabrın 20-də separatçılardan təmizlənib.

Prezident oktyabrın 15-də Xocalı şəhərində də dövlət bayrağımızı ucaldıb. 1992-ci ilin 26 fevralında Azərbaycan xalqına qarşı tarixin ən qanlı soyqırımlarından birinin törədildiyi Xocalı şəhəri də bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində azadlığa qovuşub. Xocalıda Azərbaycan bayrağının dalğalanması faciə qurbanlarının qanının yerdə qalmadığını simvolizə edir.

Prezident eyni gündə Xocalı rayonunun Əsgəran qəsəbəsində də bayrağımızı ucaldıb, həmçinin bu il sentyabrın 20-də separatçılardan azad edilən Əsgəran qalasında olub. XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın göstərişi ilə inşa olunan Əsgəran qalası Azərbaycan memarlığının parlaq nümunələrindəndir. Qala Şuşadan 24, Xocalıdan isə 5 kilometr məsafədə yerləşir.

# Azərbaycanın TÜRKSOY-la əməkdaşlıq münasibətləri ən yüksək səviyyədədir

Türk dünyası öz qədim və möhtəşəm mədəniyyəti ilə bəşər sivilizasiyası tarixinə iftixar dolu parlaq səhifələr yazmışdır. Türk xalqları şanlı keçmişlərindən güc alaraq zamanın sınaqlarından daim alnıaçıq çıxmış, günümüzədək milli mədəni özünəməxsusluğu qoruyub saxlamışlar. Misilsiz zənginliyi ilə seçilən ümumtürk mədəni irsinin mühafizə olunması, bu böyük sərvətin gələcək nəsillərə çatdırılması və dünyaya tanıdılması işində TÜRKSOY qardaş türk ölkələri arasında yaradılan ilk beynəlxalq qurum kimi ötən müddətdə təqdirəlayiq xidmətlər göstərmişdir.

Bu sözlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının – TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə oktyabrın 15-də Bakıda keçirilən təntənəli mərasimin iştirakçılarına müraciətində deyilir.

Müraciətdə qeyd olunur ki, TÜRKSOY-un təşkilatçılığı və bilavasitə iştirakı ilə ənənəvi şəkil alan layihələr, müntəzəm keçirilən mədəniyyət günləri, incəsənət festivalları, həmçinin Türk dünyasının şah əsərlərinin, əlamətdar tarixi-mədəni hadisələrinin və görkəmli şəxsiyyətlərinin təntənə ilə qeyd olunan yubileyləri türk xalqları arasında qarşılıqlı əlaqələri dərinləşdirmiş və möhkəmlətmişdir. Təşkilatın fəaliyyəti türk dövlətləri rəhbərlərinin bütün zirvə toplantılarında, dövlət və hökumət başçılarının birgə bəyannamələrində həmişə yüksək qiymətləndirilmişdir.

Diqqətə çatdırılır ki, ortaq türk mirasının qorunması və təbliği ilə bağlı gerçəkləşdirdiyi irimiqyaslı layihələrlə Azərbaycan TÜRKSOY-a hər zaman dəstəyini ifadə etmiş, türkdilli ölkələrin mədəni inteqrasiyasının geniş vüsət almasına çalışmışdır. Təşkilatla respublikamız arasında əməkdaşlıq münasibətləri hazırda ən yüksək səviyyədədir.

“Türk dünyası birliyinin daha da möhkəmləndirilməsi və müştərək mədəni-mənəvi dəyərlərimizin layiqincə qorunub yaşadılması yolunda hər birinizə yeni-yeni uğurlar arzulayıram”, – deyə müraciətdə vurğulanır.

# Lənkərandan gələn “Cəmilə” Bakıda qonaq olub

əvvəli səh. 1-də



Nümayişdən əvvəl ATXİ sədrinin vəzifə səlahiyyətlərini icra edən Xalq artisti Hacı İsmayılov teatrı yubileyi münasibəti ilə təbrik etdi, sənət ocağının keçdiyi zəngin inkişaf yolundan danışdı. Bildirdi ki, repertuarında Azərbaycan və dünya dramaturgiyasının klassik və müasir nümunələrinin yer aldığı teatr ölkəmizdə və onun hüdudlarından kənarda qastrol səfərlərində olur, beynəlxalq teatr festivallarında ölkəmizi uğurla təmsil edir.

Hacı İsmayılov milli teatr sənətinin inkişafındakı xidmətlərinə görə və bərpasının 50 illik yubileyi münasibətilə Lənkəran Dövlət Dram Teatrına ATXİ-nin fəxri fərmanını təqdim edərək kollektivə uğurlar arzuladı.

Həmçinin teatrın bərpasında xüsusi xidmətləri olan aktyorlar – Xalq artisti Qabil Quliyev fəxri fərmanla, Xalq artisti Böyükxanım Əliyeva və aktrisa Şahrud Mehdiyeva ittifaqın “Qızılgül” mükafatı ilə təltif olundular.

Tamaşanın nümayişindən sonra uğurlu quruluşa görə gənc rejissor İmran Ali Qurban ittifaqın fəxri fərmanına layiq görüldü.

Təltif olunanlar göstərilən diqqətə görə Teatr Xadimləri İttifaqına minnətdarlıqlarını bildirdilər.

**Həmidə**

# Füzuli Şəhəri Günü – azad eldə ilk bayram şöləni

əvvəli səh. 1-də

Daha sonra qonaqlar “Füzuli” guşəsinə baş çəkiblər. Burada Məhəmməd Füzulinin müxtəlif əsərləri əsasında hazırlanmış kompozisiyalar nümayiş olunub, şairin şeirləri səsləndirilib. Rəssam tərəfindən dahi şairin portreti yaradılıb.





Tədbir məkanında “100 tar” adlı kompozisiya təqdim olunub. Ustad tarzənlər, uşaq, yeniyetmə və gənclərdən ibarət 100 nəfər tarzənin ifası maraqla qarşılanıb.

Sonra tədbir iştirakçıları və qonaqlar Azərbaycan milli mətbəx nümunələrini dadıblar.

Şəhər günü tədbiri çərçivəsində günün sonunda əslən Füzulidən olan müğənnilər Murad Arif və Günay İbrahimlinin ifasında musiqi nömrələri, eləcə də “Natiq” ritm qrupunun “Dəmir yumruq” kompozisiyası təqdim olunub.

Tamaşaçılar ifaları hərarətlə qarşılayıblar.

Füzuli Şəhəri Günü atəşfəşanlıqla başa çatıb.

***

Füzuli şəhərinə qayıdan sakinlər bayram tədbirini böyük qürur hissi ilə, sevinclə, minnətdarlıqla qarşılayırlar. Xatın Şirinova işğala qədər şəhərin Mobil Hacıyev küçəsində yaşayıb: “Ermənilər bütün düzənimizi pozdular. Yurdumuzu tərk elədik, çadırlarda yaşadıq. Var olsun Ordumuz, Ali Baş Komandanımız, torpaqlarımızı azad elədilər. Artıq öz yurdumuzdayıq. O qədər xoşbəxtik ki. Hər cür şəraitimiz var. Binamızın pəncərəsindən baxanda ermənilərin dağıtdığı yurdumuzun xarabalığı görünür. Düşmən bizə unutmayacağımız pisliklər elədi”.

Digər sakin Mübariz Qasımov deyir ki, Füzulini 13 yaşı olanda tərk ediblər: “44 yaşımda şəhərimizə qayıtdıq. Düşmən bu şəhərdə bircə nənəmgilin evini dağıtmamışdı. O, vaxtilə Füzuli dəmir yolu vağzalında çörək satırdı.





Ustayam, doğma şəhərimin quruculuğunda can-başla işləyirəm. Həm yüksək əməkhaqqı alır, həm də sakinlərimizin yaşayışı üçün şərait yaradırıq. İşlər üç növbədə aparılır. Uşaqlarım burada özlərini xoşbəxt hiss edirlər”.

19-20 sentyabr 2023-cü il tarixində Qarabağda keçirilən lokal antiterror əməliyyatında şəhid olan Ülvi Mehdiyevin babası Rəşid Abbasov Birinci Qarabağ müharibəsində döyüşüb. 1994-cü ildə rayonun bir sıra yaşayış məntəqələrinin azad olunmasında iştirak edib: “Var olsun Prezidentimiz, Ordumuz, çox qısa müddətdə torpaqlarımız azad edildi. Çox şadıq, hər cür şəraitimiz var. Övladlarım da burada işlə təmin olunub. Şükür bu günlərə, artıq öz elimizdəyik”.

***

İşğaldan öncə respublikamızın iri yaşayış məntəqələrindən olan Füzuli rayonu 1930-cu ildə təşkil olunub. Qarabulaq adlanan yaşayış məntəqəsinin əsasında yaradılan rayona Qaryagin adı verilib. 1959-cu ildə böyük şair Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Füzuli rayonu adlandırılıb.

Rayonun Qarğabazar kəndində XVII əsrə aid karvansara və məscid, Cəlil türbəsi (XVIII əsr), Aşağı Veysəlli kəndində XIII əsrə aid Mirəli türbəsi, Qoçəhmədli kəndində XVIII əsrə, Horadiz, Qacar, Merdinli və s. kəndlərdə XIX əsrin yadigarı olan məscid binaları, Aşağı Ayıbasanlı kəndində İbrahim türbəsi (XVIII əsr), Saracıq və Gorazıllı kəndlərindəki XIX əsr körpüləri və s. dini və mədəniyyət abidələri var idi.

1993-cü il avqustun 23-də Füzuli şəhəri və rayonun kəndlərinin böyük hissəsi, həmin ilin oktyabrında isə rayonun Arazboyu yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Füzulililər öz doğma torpaqlarından məcburi köçkün düşərək respublikanın 50-dən çox rayon və şəhərində məskunlaşıblar. İşğal zamanı ermənilər tərəfindən bütün infrastruktur obyektləri, o cümlədən tarixi, dini-mədəni abidələr yerlə yeksan edilib.

1994-cü ilin yanvarında Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində rayonun Arazboyu 21 kəndi və Horadiz qəsəbəsi işğaldan azad olunub.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Şərqi Zəngəzuru və Qarabağı düşməndən azad edərək şanlı Qələbə qazanıb. Vətən müharibəsində Füzuli şəhəri də daxil olmaqla rayonun 62 yaşayış məntəqəsi işğaldan azad edilib.

Müharibədən qısa müddət sonra azad olunmuş ərazilərdə, o cümlədən Füzuli şəhərində geniş bərpa və quruculuq işləri başlanıb.

Artıq Füzuli şəhəri öz sakinlərinə qucaq açır. Bu ilin avqust ayından 258 ailənin (928 nəfər) doğma şəhərdə daimi məskunlaşması təmin edilib...

**Fariz Yunisli**
**Bakı-Füzuli-Bakı**

# Şuşada TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının iclası keçirildi

## “Türk dünyasının mədəniyyət paytaxtı” estafetini 2024-də Türkmənistanın Anev, 2025-də isə Qazaxıstanın Aktau şəhərləri qəbul edəcək

**Oktyabrın 13-14-də Şuşada TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı iclası keçirildi. Tədbir Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə gerçəkləşdi.**






İclası cari ildə TÜRKSOY dönəm koordinatorluğunu yerinə yetirən Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli açaraq iştirakçıları salamladı. Nazir iclasın əhəmiyyətini vurğulayaraq müzakirə olunacaq bir sıra məsələlərin olduğunu bildirdi.

TÜRKSOY-un baş katibi Sultan Raev builki iclasın əhəmiyyətli bir ilə təsadüf etdiyini bildirdi. Qeyd etdi ki, bu il təşkilatın qurucu üzvlərindən Türkiyə Cümhuriyyətinin 100 illik, TÜRKSOY-un isə yaradılmasının 30 illik yubileyləridir. Diqqətə çatdırıldı ki, toplantıda ənənəvi olaraq TÜRKSOY-un fəaliyyəti, Daimi Şuranın 39-cu iclasından ötən bir ildə görülən işlər nəzərdən keçiriləcək, 2024-cü il üçün planlar açıqlanacaq, müvafiq qərarlar qəbul ediləcək.

Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyev iclasın mühüm qərarlarla yadda qalacağını vurğuladı.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qeyd etdi ki, 2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində TÜRKSOY-a üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının növbədənkənar iclasında Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib. Bununla bağlı tədbirlər haqqında Prezident İlham Əliyev tərəfindən müvafiq sərəncam imzalanıb. Sərəncama uyğun olaraq, Şuşada müxtəlif tədbirlər həyata keçirilib.

Qırğız Respublikasının mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin müavini Kayrat İmanaliyev Şuşada olmasından məmnunluğunu söylədi, iclasda alınacaq qərarların ölkələrimizin gələcək əməkdaşlığına töhfə verəcəyinə əminliyini bildirdi.

Özbəkistan mədəniyyət nazirinin birinci müavini Bahodir Axmedov son illər Türk dünyasının müxtəlif əhəmiyyətli layihələrə imza atdığını dedi. Qeyd etdi ki, bu layihələr xalqımızın birliyini daha da gücləndirəcək.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Sərdar Çam Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində düşməndən azad edilmiş Şuşada belə bir iclasın keçirilməsinin təqdirəlayiq olduğunu söylədi. O, iki il əvvəl Şuşaya səfər etdiyini, bu müddətdə şəhərin çox gözəlləşdiyini vurğuladı.

Şimali Kipr Türk Cümhuriyyəti Baş nazirinin müavini – turizm, mədəniyyət, yaşayış və ətraf mühit naziri Fikri Ataoğlu Türk dünyasının bir araya gəlməsi adına TÜRKSOY-un missiyasını yüksək qiymətləndirdi, Şimali Kiprin Türk dünyasının bir parçası olmasından qürur duyduqlarını dedi.

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) baş katibi Mehmet Süreyya Er, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev və başqalarının çıxışları da dinlənildi.

İclas daha sonra qapalı formatda işini davam etdirdi.

***

Oktyabrın 14-də TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı iclasının yekun tədbiri təşkil edildi.

Mədəniyyət naziri Adil Kərimli iclasın uğurlu keçdiyini, qəbul olunmuş qərarların həm TÜRKSOY, həm də üzv dövlətlər üçün faydalı olacağını vurğuladı.

Sonra iclasda bir sıra məsələlər üzrə qəbul olunmuş qərarlar açıqlandı.

### Müştərək kino istehsalına dəstək, xatirə illəri, yeni “paytaxt”lar

Qeyd olundu ki, Azərbaycan Mədəniyyət Nazirliyi və Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təklifləri əsasında türk dövlətləri arasında müştərək kino istehsalını dəstəkləyəcək mexanizmin qurulması məqsədilə TÜRKSOY-a üzv ölkələrdən professionalların yer alacağı bir işçi qrupunun yaradılması qərara alınıb.

Daimi Şura 2025-ci ilin TÜRKSOY-a üzv olan ölkələrdə Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadənin (1925-2009), Qazaxıstanın Xalq Qəhrəmanı, bəstəkar Nurgisa Atabayoğlu Tilendiyevin (1925-1998) 100 illik, Qırğızıstanın Xalq artisti, bəstəkar və ifaçı Atay Ogonbaevin (1900-1949), Türkiyənin tanınmış xalq musiqi sənətkarı və bəstəkarı Münir Nurettin Selçukun (1900-1981) 125 və Kipr türklərinin saz-söz ustası Aşıq Kenzinin 230 illik yubileyləri münasibətilə anım ili olaraq elan edilməsini qərarlaşdırıb.

2024-cü ildə Türkmənistanın Anev şəhəri “Türk dünyasının mədəniyyət paytaxtı” olacaq. 2025-ci ildə isə bu estafeti Qazaxıstanın Aktau şəhərləri qəbul edəcək.

İclasda TÜRKSOY Daimi Şurasının növbəti, 41-ci iclasının gələn ilin sonlarında Türkmənistanın Anev şəhərində keçirilməsi qərara alınıb. Həmçinin təşkilatın fəaliyyəti ilə bağlı maliyyə məsələlərinin tənzimlənməsi, kadr, vəzifə və iş qaydaları və s. məsələlər üzrə qərarlar qəbul edilib.

Sonda mədəniyyət naziri Adil Kərimli, TÜRKSOY-un baş katibi Sultan Raev və quruma üzv olan ölkələrin nümayəndələri tərəfindən iclasda alınan qərarlarla bağlı sənədlərə imzalar atıldı.

Xatırladaq ki, TÜRKSOY Daimi Şurasının 39-cu iclası ötən ilin noyabrında Bursada keçirilib. Həmin toplantıda 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” estafeti Şuşa şəhərinə, təşkilatda dönəm koordinatorluğu isə Azərbaycana keçmişdi.

**Nurəddin Məmmədli**

# Qardaş xalqlar incəsənətinin təntənəsi



*əvvəli səh. 1-də*

1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın mədəniyyət nazirlərinin iştirakı ilə Almatı şəhərində keçirilən toplantıda “Türk Kültür və Sənətləri Ortaq Yönətimi”nin (TÜRKSOY) yaradılması haqqında sazişin imzalanması ilə əslində, tarix üçün, Türk dünyası üçün böyük yolun təməli, sağlam bünövrəsi qoyulub. 2009-cu ildən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı adlanan qurumun katibliyi Ankara (Türkiyə) şəhərində yerləşir. Azərbaycan təşkilatın fəaliyyətində yaxından iştirak edir. TÜRKSOY ölkəmizlə bağlı çoxsaylı birgə layihələr həyata keçirib. Təşkilatın “Türk dünyasının mədəniyyət paytaxtı” layihəsi bu il ikinci dəfə Azərbaycanda, Şuşada reallaşır. 2016-cı ildə bu adı Şəki şəhəri daşımışdı. Bu il həmçinin TÜRKSOY Daimi Şurasında dönəm koordinatorluğunu Azərbaycan həyata keçirir.

Gecədə tarixi an – Xankəndində Azərbaycan bayrağının dalğalanması, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Xankəndində səsləndirdiyi “20 il əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində prezident seçdi. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəm. Azərbaycanın ərazi bütövlüyünü qoruyacam. Konstitusiya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi” fikirləri yenidən vurğulandı.

Torpaqlarımızın azadlığı uğrunda canından keçən müqəddəs şəhidlərimizin əziz xatirəsi bir daha yad edildi, qazilərimizə minnətdarlıq bir daha dilə gətirildi.










Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva dövlət başçısı İlham Əliyevin TÜRKSOY-un 30 illiyinə həsr olunmuş təntənəli tədbirin iştirakçılarına ünvanlandığı təbrik məktubunu oxudu. Məktubda ortaq türk mirasının qorunması və təbliği ilə bağlı gerçəkləşdirdiyi irimiqyaslı layihələrlə Azərbaycanın TÜRKSOY-a hər zaman dəstəyini ifadə etməsi, türkdilli ölkələrin mədəni inteqrasiyasının geniş vüsət almasına çalışdığı xüsusi vurğulanır, qurumun sonrakı səmərəli fəaliyyətinə inam ifadə olunur.

Daha sonra çıxış edən TÜRKSOY-un baş katibi Sultan Raev Azərbaycan Prezidenti İlham Əliyevə təşkilatın ildönümünə həsr olunmuş tədbirlərin keçirilməsinə göstərilən dəstəyə və həmişə Türk dünyasının yanında olduğuna görə təşəkkürünü bildirdi. O, həmçinin bu il 100-cü ildönümü qeyd olunan Azərbaycan xalqının Ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad edərək onun təşkilata göstərdiyi diqqətdən bəhs etdi.

Təşkilatın 30-cu ilini Bakıda belə bir möhtəşəm konsert proqramı ilə qeyd etməsindən məmnunluğunu vurğulayan baş katib tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkür etdi.

Gecənin daha bir özəlliyi TÜRKSOY-un 30 illik yubileyi münasibətilə Azərbaycanın tanınmış mədəniyyət və incəsənət xadimlərinə təşkilatın təsis etdiyi “Şərəf” medalının təqdimatı oldu. Xalq yazıçısı Elçin (ədəbiyyat), Xalq artistləri Polad Bülbüloğlu (təşkilatın ilk baş katibi), Şəfiqə Məmmədova (kino), Nurəddin Mehdixanlı (teatr), Faiq Sücəddinov (musiqi), Xalq rəssamları Fərhad Xəlilov və Sakit Məmmədov (təsviri incəsənət) TÜRKSOY-un “Şərəf” medalı ilə təltif olundular.

Tədbir Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Türkmənistandan, eləcə də uzaq türk eli Xakasiyadan (Rusiya Federasiyası) olan vokalçılar, musiqi kollektivləri və rəqs ansambllarının çıxışları ilə davam etdi.

Beləcə, Altaylardan uzaq Sibir çöllərinə, Orta Asiyadan Qafqazlara uzanan coğrafiyada kök salan və öz zəngin mədəniyyətini, milli dəyərlərini qoruyub saxlayan ölkə və diyarların mədəniyyət və incəsənət xadimləri gecə iştirakçılarını türk olmağın əzəmətində öz sənət dünyalarına apara bildilər.

Zövqlə tərtib olunmuş konsert proqramının “Birlikdə” (M.Vəkilov, Z.Bədəlbəyli), “TÜRKSOY – 30 il” (C.Quliyev, K.Çarboqa), “Şəki – İpək Yolunda Karvansara Mərkəzi” (poetik vokal kompozisiya), “Qarabağ” vokal-xoreoqrafik kompozisiyası (C.Cahangirov), eləcə də Türk dünyasının milli alətlərinin deyişməsi kimi təqdimatları maraqlı və seçkin idi.

Xakasiyalı sənətçilərin “Çöl ilğımı” vokal-xoreoqrafik kompozisiyası (ifaçılar Ruslan İvakin və “Şalkıma” rəqs ansamblı) izləyicilərə həyəcanverici anlar yaşatdı.

Türkmənistandan “Kuştepti”, Şimali Kiprdən “Aramızda dərya dəniz”, Türkiyədən “Türk xalq mahnı və rəqsləri”, Qırğızıstandan “Kurama kuu”, Azərbaycandan “Zəngəzur yallısı”, Qazaxıstandan “Gözəllərin geçişi”, Özbəkistandan “Surnay lazgisi” kimi vokal, vokal-xoreoqrafik və vokal-instrumental kompozisiyaları salonda coşqu yarada bildi.

Proqram tərtibçiləri tenor və soprano paradı, eləcə də aşıqların deyişmələri ilə də Türk dünyasının Şərqdən Qərbə fərqli sənət istiqamətlərində zənginliyini və sənət mübadiləsini əyani göstərdilər.

Azərbaycan Dövlət Xor Kapellası (xormeyster Gülbacı İmanova), Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, Azərbaycan Dövlət Rəqs Ansamblı, “Cəngi” estrada-folklor ansamblı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Orkestri (dirijorlar Əyyub Quliyev, Mustafa Aşurov, Erbolat Axmedyarov), eləcə də qonaq kollektivlər – “Navruz”, “Şalkıma”, “Altın Karagöz”, “Serpay” rəqs ansamblları fərqli mahnı və rəqslərin ifa və xoreoqrafik təqdimatında göz oxşadılar.

Qədim el sənəti, uzaq keçmişdən bu günümüzə gələrək yaşamaq haqqı qazanan ozan sənəti təmsilçilərinin – “Akak” komuz (Qırğızıstan), “Bek” doyra (Özbəkistan) ansambllarının çıxışları da maraqlı idi.

Konsert proqramı bütün kollektivlər və solistlərin iştirak etdiyi “Azərbaycan – odlar yurdu” (O.Zülfüqarov) kompozisiyası ilə yekunlaşdı. Beləcə, əzəmətli birliyin, qırılmaz tellər ilə bağlılığın nümayişi olan tədbir tarixə qovuşdu.

Əlavə edək ki, yubiley tədbiri çərçivəsində Heydər Əliyev Mərkəzində Türk dünyası rəssamlarının sərgisi də açılmışdı.

**Həmidə Rüstəmova**

# Qızılı payızın havasında pərvazlanan caz melodiyaları

**Mədəniyyət Nazirliyinin dəstəyi və ”Paşa Holdinq”in baş sponsorluğu ilə 6-15 oktyabr tarixlərində gerçəkləşən XVIII Bakı Beynəlxalq Caz Festivalı da sənət tarixinə qovuşdu. 10 gün ərzində paytaxt sakinləri və şəhərimizin qonaqları dünyanın müxtəlif şəhərlərindən ölkəmizə təşrif buyuran tanınmış ifaçıları dinləmək imkanı qazandılar.**




Festival gündəliyində maraqlı konsertlərdən biri də oktyabrın 11-də Beynəlxalq Muğam Mərkəzində (BMM) “Qremmi” mükafatı laureatı, isveçrəli ifaçı və bəstəkar Qreqori Maret və Kolumbiya əsilli caz arfa virtuozu Edmar Castanedanın çıxışı idi.

Maret son on ildə müasir caz dünyasının geniş spektrində unikal yeni səsə çevrilib. Seçdiyi alətin-harmonikanın bu janrda nisbi nadir olması onun qeyri-adi səsinin elementlərindən biridir. Edmar Kastaneda caz ənənəsini müxtəlif üslub və janrlarla mükəmməl birləşdirən parlaqlığı nümayiş etdirir və diqqəti caz üçün nisbətən yad sayılan alətə yönəldir. Kastaneda arfanın cazdakı yerini Stinq, Bela Flek, Con Skofild, Rikki Li Cons, İvan Lins kimi tanınmış dünya ulduzları əməkdaşlıq vasitəsilə möhkəmləndirib.

BMM-də festivalın daha bir maraqlı konserti amerikalı caz və rep ifaçısı Theo Crokerin çıxışı oldu. Onu klavişli alətlərdə Mike King, elektrogitarada Eric Ueller, zərb alətlərində Shekvaga Ode müşayiət edirdi.

Bakı Caz Festivalı çərçivəsində daha bir konsert oktyabrın 14-də Heydər Əliyev Mərkəzində keçirilib.

Braziliyalı musiqiçi Mario Bakunanın konsertindən əvvəl Azərbaycanın Əməkdar rəssamı Eldar Qurbanovun “Cazın ağ quşları” sərgisi nümayiş olunub.

Sərgi ilə tanışlıqdan sonra braziliyalı musiqiçi Mario Bakunanın “Braziliya mənzərələri” adlanan konserti təqdim edilib. Məşhur caz ifaçısı eyniadlı albomu ilə artıq Avropanın 16 ölkəsində qastrolda olub. “Braziliya mənzərələri” albomu məşhur braziliyalı bəstəkarların əsərlərinin yeni aranjimanının təqdimatı ilə fərqlənir. Onu da qeyd edək ki, braziliyalı bəstəkar, aranjimançı, müğənni və gitara ifaçısı Mario Bakuna Londonda yaşayır və 20 ildir dünya səhnələrində çıxış edir.

Beləliklə, XVIII Bakı Beynəlxalq Caz Festivalı növbəti dəfə bu musiqinin peşəkar və pərəstişkarlarına əsl caz-karnaval bəxş etmiş oldu.

**Lalə**

№77 (2046)
18 oktyabr 2023
www.medeniyyet.az

# Şuşa Türk dünyası mədəniyyətinin cazibə mərkəzinə çevrilir

“Ümumtürk mədəniyyətini dünyaya təbliğ etmək üçün belə bir ortaq platforma vacib idi”

*əvvəli səh. 1-də*




Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) baş katibi Mehmet Süreyya Er Şuşanın türk təşkilatlarını, qardaş respublikaların müvafiq qurumlarının rəhbərlərini bir araya gətirməsinin rəmzi məna daşıdığını vurğuladı: “İşğaldan azad edildikdən qısa müddət sonra burada aparılan geniş bərpa və quruculuq işləri Şuşanı keçmişdəki şöhrətinə qovuşdurmaqdadır. Artıq bu füsunkar şəhər mötəbər tədbirlərə, incəsənət layihələrinə ev sahibliyi edir.

Beynəlxalq Türk Akademiyasının (BTA) prezidenti Şahin Mustafayev də Azərbaycanın tarixi qələbəsinin bütün Türk dünyasının zəfəri olduğunu bildirdi. “30 ilə yaxın işğal dövründə düşmən tərəfindən dağıdılan bu torpaqlar Azərbaycan dövləti tərəfindən yenidən qurulur. Biz bunları türk dövlətləri ilə bir yerdə edirik. Hazırda Şuşada keçirilən bu forum ortaq mədəni dəyərlərimizin təbliğinə mühüm töhfə olacaq”.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirdi ki, Ulu öndər Heydər Əliyev türk xalqlarının birliyi naminə mühüm işlər görüb: “Türk dövlətləri artıq tək millət, 6 dövlətə doğru uğurla addımlamaqdır. Bu, Heydər Əliyevin dühası işığında gəlib çatıla bilən ən böyük zirvədir. Forumun Ümummilli liderimizin 100 illiyinə həsr olunması “Heydər Əliyev İli”nə mühüm töhfədir”.

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar çıxışında Şuşada anadan olmasa da, özünü şuşalı hiss etdiyini dedi: “Çox şadam ki, bu yaşımda Şuşanın azad olunduğu günü gördüm. Hazırda Şuşa günü-gündən gözəlləşir, abadlaşır. Mən həmişə deyirəm ki, bu Qələbənin bir babası, bir də atası var. Bu Zəfərin babası Heydər Əliyev, atası isə Prezident İlham Əliyevdir”.

Çıxışlardan sonra xatirə şəkilləri çəkdirildi. Forum işini panel sessiyalarla davam etdirdi.
















### Türk dilləri və ədəbiyyatları: diferensiasiya və inteqrasiya

Forumun “Türk dilləri və ədəbiyyatları: Diferensiasiya və inteqrasiya” adlı ilk paneli Milli Məclisin deputatı, akademik Nizami Cəfərovun moderatorluğu ilə keçdi.

Paneldə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türk dünyası dövlətləri arasında ədəbi inteqrasiya kontekstində ortaq ədəbi dilin yaradılmasının vacibliyini bildirdi.

Qazaxıstanın Al-Farabi Universitetinin rektoru Zhanseit Tuimebayev, türkiyəli alim Mustafa İsen, Qırğızıstan Milli Elmlər Akademiyasının Çingiz Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru Abduldazhan Akmataliev, Ege Universiteti Ədəbiyyat fakültəsinin professoru Yavuz Akpınar, professor, filologiya elmləri doktoru Boboxon Şaripov, Avrasiya Yazıçılar Birliyinin sədri Yakub Ömeroğlu mövzu üzrə fikirlərini bölüşdülər.

Diqqətə çatdırıldı ki, türk xalqları arasında ortaq ünsiyyət dilinin formalaşdırılması günümüzdə çox böyük əhəmiyyət kəsb edir. Bunun üçün isə ortaq əlifba və dərsliklərin hazırlanıb nəşr edilməsi qarşıda duran vacib vəzifələrdəndir. Vurğulandıki, Azərbaycan dili, qazax türkcəsi və digər türkcələr istər söz ehtiyatının zənginliyi, istərsə də qrammatik quruluşu baxımından ortaq dil olma potensialına sahibdir.

### Mədəni və tarixi irsin qorunması və bərpasında ən yaxşı təcrübələr

Forumun ikinci günü, oktyabrın 14-də “Mədəni və tarixi irsin qorunması və bərpasında ən yaxşı təcrübələr” mövzusunda panel keçirildi.

Paneldə çıxış edən Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva bildirdi ki, otuzillik işğaldan azad edilən ərazilərə Böyük Qayıdış prosesində başlıca məqamlardan biri də mədəniyyətin, mədəni-mənəvi irsimizin qaytarılması olacaq. Bu yerlərdə infrastruktur layihələri ilə yanaşı, tarix-mədəniyyət abidələri ilə bağlı mühüm işlər də görülür, tarixi abidələr, məscid və məqbərələr, ev-muzeyləri bərpa edilir. Mədəni irsin bərpası zamanı abidələrin ilkin simasına qaytarılması, bədii-estetik xüsusiyyətlərin qorunması və onların müasir şəhərsalma prosesi çərçivəsində nəzərə alınması xüsusi əhəmiyyətə malikdir.

Qazaxıstanlı akademik, bərpaçı alim Krım Altınbekov “Tamqalı petroqliflərinin mühafizə olunması ilə bağlı strategiya və üsullar”, Qırğızıstan Milli Elmlər Akademiyasının Tarix, Arxeologiya və Etnologiya İnstitutunun elmi işçisi Aidai Sulaymanova “Saymaluu-Taş” qayaüstü rəsm abidəsinin sənədləşdirilməsi təcrübəsi”, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət Əmlakları və Muzeylər Baş İdarəsinin müdiri Zeynep Gül Ünal “Mədəni irsin birləşdirici gücü”, Özbəkistan Elmlər Akademiyası Təsviri İncəsənət İnstitutunun Memarlıq şöbəsinin müdiri Mavlyuda Yusupova “Mərkəzi Asiyanın müqəddəs yerlərinin memarlıq orijinallığının qorunmasının aktual problemləri”, Özbəkistanda Qaraqalpaq Humanitar Araşdırmalar İnstitutunun şöbə müdiri Aysulu İskənderova “Özbəkistan arxeologiyasında mədəni irsin qorunması təcrübəsi”, türkiyəli arxeoloq İbrahim Barış Sarıca “Türkiyədə mədəni irsin qorunması və qeyri-qanuni ticarət fəaliyyətləri ilə mübarizə”, Özbəkistan Milli Universitetinin professoru Niginakhon Şermuxamedova “Türk maddi mənəvi məkanının tərkib hissəsi kimi Özbəkistanın memarlıq irsinin xüsusiyyətləri” mövzularında çıxış etdilər.

### Mədəniyyət və yaradıcı sənayelər sahəsində əməkdaşlıq

Forumun sonuncu panelı yaradıcı sənayelərin və innovasiyaların mədəniyyət sahəsində inkişafına həsr olunmuşdu.

Paneldə aparılan müzakirələr barədə Mədəniyyət Nazirliyinin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov məlumat verdi. Bildirdi ki, yaradıcı sənayelərin inkişafı olduqca vacib bir istiqamətdir. Hazırda mədəniyyətin təbliğatı, inkişafı barədə sessiyada təcrübə mübadiləsi aparılıb, maraqlı layihələr barəsində məlumatlar paylaşılıb. Artıq Şuşada keçirilmiş I Türk Dünyası Mədəniyyət Forumu yeni layihələrə, təşəbbüslərə start verir.

Rəşad Əzizov onu da qeyd etdi ki, indiki dövrdə yeni texnologiyaların, innovasiyaların tətbiqi, xüsusi olaraq süni zəkanın tətbiqi mədəniyyət və yaradıcılıq sahəsində də mühüm yer tutur. Bu sahədə əməkdaşlıq artırılmalıdır və Mədəniyyət Nazirliyi hazırda bu proseslərə xüsusi diqqət yetirir. Qısa müddətdə nəinki ölkədaxili, eyni zamanda, digər türkdilli ölkələrlə birgə müvafiq layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

***

Oktyabrın 14-də, I Türk Dünyası Mədəniyyət Forumunun sonunda Şuşa Bəyannaməsi qəbul edildi. Bəyannamədə Azərbaycan Respublikasının təşəbbüsü ilə yaradılmış Türk Dünyası Mədəniyyət Forumunun mühüm universal platforma kimi uğurlu olduğu vurğulanır və iki ildən bir keçirilməsini təklif edilir.

***

I Türk Dünyası Mədəniyyət Forumunun iştirakçıları oktyabrın 14-də Şuşa şəhərinin tarixi məkanları və görməli yerləri ilə də tanış oldular. Qonaqlar Cıdır düzünü gəzdilər, Molla Pənah Vaqifin məqbərəsini, Mehmandarovların malikanə kompleksinu, Yuxarı Gövhər Ağa məscidini ziyarət etdilər, Mir Möhsün Nəvvab Qarabağiyə həsr edilmiş sərgiyə baxdılar.

Forumun ilk günü Şuşa Otel-Konqres Mərkəzində iştirakçılar üçün “Dövri səda” adlı konsert proqramı da təşkil edilmişdi. Konsert böyük maraqla qarşılandı.

**Nurəddin**
**Bakı-Şuşa-Bakı**

## I Türk Dünyası Mədəniyyət Forumunun Şuşa Bəyannaməsi

**1.** Türk dünyasının ilk mədəniyyət forumuna dəstəyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün iştirakçılar adından təşəkkür edirik.

**2.** Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, eləcə də Türk dünyasının 2023-cü il üzrə mədəniyyət paytaxtı Şuşaya Böyük Qayıdışı və bu yolda sürətlə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini və mədəni mühitin canlandırılmasını alqışlayırıq.

**3.** 30 illik işğal dövründə, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində Türk dünyası mədəni irsinin ayrılmaz tərkib hissəsi tarixi və mədəni abidələrin genişmiqyaslı dağıdılması, həmçinin mədəni mülkiyyətin qaçaqmalçılığı və qanunsuz dövriyyəsi kimi ağır beynəlxalq humanitar hüquq pozuntularını qəti şəkildə pisləyir və bütün aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən bu məsələdə sərt mövqe tutulmasını tələb edirik.

**4.** Şuşada baş tutan diskussiyalar və geniş fikir mübadilələri çərçivəsində türk mədəniyyətinin dünəni, bu günü və sabahı nəzərə alınaraq mövcud çağırışların birgə əməkdaşlıqda həlli üçün yeni mexanizmlərin yaranmasını dəstəkləyirik.

**5.** Türk dilləri və ədəbiyyatı vasitəsilə ortaq mədəni mövqeyimizin gücləndirilməsini zəruri hesab edir və bu irsin rəqəmsal mühitə transformasiyasını sürətləndirməyə çağırırıq.

**6.** I Türk Dünyası Mədəniyyət Forumu çərçivəsində əldə edilmiş müsbət nəticəni nəzərə alaraq türk tarixi-mədəni irsinin araşdırılması, bərpası, mühafizəsi və təbliği sahəsində birgə fəaliyyət və ən yaxşı təcrübənin bölüşülməsinə xidmət edəcək Türk dünyasının İrs üzrə rəhbərlərinin şəbəkəsinin yaradılmasını alqışlayır və mütəmadi əsaslı platforma fəaliyyətinə başlamasını tövsiyə edirik.

**7.** Türk dünyasında mədəni marşrutlar proqramının təsis edilməsini və ilk mədəni marşrutun yaradılması təşəbbüsünü perspektivli ortaq layihə kimi yüksək qiymətləndirir və bütün maraqlı tərəfləri bu təşəbbüsün irəlilədilməsində fəal iştiraka çağırırıq.

**8.** Mədəniyyətin rəqəmsallaşması, habelə XXI əsrdə türk mədəniyyəti qarşısında duran çağırışlara cavab verən ortaq həlləri təşviq edirik və mədəniyyət sahəsindəki yaradıcı sənayelərin ortaq bazarların yaradılması üzrə müzakirələrin intensivləşməsini təklif edirik.

**9.** Azərbaycan Respublikasının təşəbbüsü ilə yaradılmış Türk Dünyası Mədəniyyət Forumu bütün əsas maraqlı tərəflərin təmsilçilərini bir araya gətirən mühüm universal platforma kimi uğurlu olduğunu qeyd edirik və Forumun iki ildən bir keçirilməsini təklif edirik.

## Gənclər şəhərində növbəti kitab bayramı



13-15 oktyabr tarixlərində “Kimyaçı”lar Mədəniyyət Sarayında III Sumqayıt Kitab Sərgisi keçirildi.

Mədəniyyət Nazirliyi, Azərbaycan Nəşriyyatları Assosiasiyası, Sumqayıt Şəhər İcra Hakimiyyəti və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə gerçəkləşən sərginin rəngarəng proqramı vardı. Biz də tədbirin son günü sərgi keçirilən məkana baş çəkib, təşkilatçı və iştirakçıların fikirlərini öyrəndik.

Azərbaycan Nəşriyyatları Assosiasiyası (ANA) idarə heyətinin üzvü, “BookZone” kitab evinin rəhbəri Seymur Tağıyev qeyd etdi ki, ANA tərəfindən ümumilikdə 14-cü kitab sərgisi təşkil edilir: “Gördüyünüz kimi, sərgiyə böyük maraq var. Sərgidə ölkənin 22 nəşriyyatı iştirak edir. Kitab bayramında nəşrlərə 20 faizdən 60 faizə qədər endirim tətbiq edilir. Onu da qeyd edim ki, sərgi çərçivəsində Təhsilin İnkişaf Fondu və ANA-nın birgə təşkilatçılığı ilə keçirilən “Kitabqurdu” I yay oxu marafonunun qalibləri də mükafatlandırıldı. I, II və III yerlərə müvafiq olaraq 1000, 500 və 300 manat pul mükafatı verildi”.

Kitab şölənində iştirak edən nəşriyyatlardan biri də “Ting” nəşriyyatıdır. Nəşriyyatın rəhbəri, Yazıçılar Birliyinin üzvü, uşaq yazarı Çinarə Köçərli bu dəfə sərgiyə 8 yeni kitab gətirdiklərini bildirdi. Ümumilikdə isə nəşriyyat tərəfindən oxuculara 45 adda kitab təklif olunur. Nəşr məhsullarına 50 faizədək endirimin edildiyini söyləyən müsahibim oxucuların Qarabağ və türk tarixindən bəhs edən kitablara daha çox maraq göstərdiyini dedi.

Bildirək ki, sərginin açılış mərasimində ANA idarə heyətinin sədri Şəmil Sadiq, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə, Sumqayıt Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Fərman Kazımov və digər qonaqlar çıxış ediblər.

Üç gün davam edən sərgidə tanınmış ədiblərin, mədəniyyət xadimlərinin iştirakı ilə təqdimatlar, imza mərasimləri, musiqi və şeir saatları axşamları, uşaqlar üçün nağıl saatları keçirilib. Yazıçılar Zahid Xəlil, Varis, Elxan Elatlı, Rövşən Abdullaoğlu və başqalarının oxucularla görüşü gerçəkləşib.

ANA-nın növbəti kitab sərgisinin dekabr ayında Gəncədə keçirilməsi nəzərdə tutulur.

**N.Məmmədli**

## “Qalib ordu – Azad şəhər”

Füzuli Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə “Qalib ordu – Azad şəhər” adlı tədbir-sərgi keçirilib.

Sərgidə muzeyin əsas fondunda yer alan Füzulinin işğaldan əvvəlki görüntülərini əks etdirən fotolar, işğaldan azad edilmiş ərazilərimizdən tapılan maddi-mədəniyyət nümunələri, eyni zamanda Füzulinin azadlığı uğrunda canlarından keçən şəhidlərimizin şəxsi əşyaları, sənədləri və fotoları nümayiş olunub.

Məlumat verilib ki, Füzuli rayonu şəhidlərinə məxsus olan 493 ədəd əşya muzeyin əsas fonduna daxil edilib. Bu əşyalar hər ilin əlamətdar günlərində sərgi şəklində ziyarətçilərə nümayiş etdirilir. Növbəti il üçün isə Vətən müharibəsi şəhidlərinə məxsus daha 82 ədəd əşyanın qəbulu və yeni əşyaların toplanması nəzərdə tutulur.



Vətən uğrunda canlarını fəda edən şəhidlərimiz öz qəhrəmanlıqları ilə gələcək nəsillərə örnək olmaqla əbədi yaddaşlara həkk olunub və onların xatirəsi hər zaman anılır.

## Sabirabadda “Hophopnamə” kitab mərkəzi açılacaq

Mil-Muğan Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə Sabirabad rayonunda yaxın aylarda “Hophopnamə” kitab mərkəzi fəaliyyətə başlayacaq.

Bölgədə ilk dəfə açılacaq müasir kitab mərkəzində ölkənin müxtəlif nəşriyyatlarının stendləri yaradılacaq, onların nəşr etdiyi və sakinlərin böyük maraqla gözlədiyi yeni kitablar kitabsevərlərə təqdim ediləcək.

Mərkəzdə müxtəlif kitab təqdimatları, məşhur yazıçı, şair, sevilən incəsənət xadimləri ilə görüşlər, uşaq və yeniyetmələrdə mütaliəyə həvəsi artırmaq üçün tanınmış mədəniyyət adamları ilə oxu günləri təşkil ediləcək.

Regionda yaşayan hər kəsin faydalana biləcəyi bu kitab mərkəzində əhalinin asudə vaxtının səmərəli təşkil olunması məqsədilə müxtəlif layihələrin həyata keçirilməsi də nəzərdə tutulur.

# Heydər Əliyev Sarayında Rəsul Həmzətovun 100 illiyi təntənə ilə qeyd olunub






Dağıstanın dünyaca məşhur şairi, Azərbaycan ədəbiyyatının yaxın dostu, ədəbi fəaliyyəti ilə Rusiya-Azərbaycan mədəni əlaqələrinə də töhfələr vermiş Rəsul Həmzətovun (1923-2003) 100 illiyi Bakıda da silsilə tədbirlərlə qeyd olunur.

Oktyabrın 11-də Heydər Əliyev Sarayında Dağıstanın Xalq şairi Rəsul Həmzətovun 100 illiyi münasibətilə təntənəli yubiley tədbiri keçirilib. Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşən tədbirdə Rusiya Federasiyası Dağıstan Respublikası Hökumətinin sədr müavini Müslüm Teləkavov, Dağıstanın mədəniyyət naziri Zarema Butayeva, digər rəsmilər, eləcə də mədəniyyət, ədəbiyyat, ictimaiyyət xadimlərindən ibarət nümayəndə heyəti iştirak edib.

Qonaqlar öncə sarayın foyesində dağıstanlı el sənətkarları və rəssamların əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Tədbirdə çıxış edən Azərbaycan mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, əsərləri müxtəlif dillərə, o cümlədən Azərbaycan dilinə tərcümə olunan Rəsul Həmzətovun sənət kredosunu səciyyələndirən başlıca amil milli-mənəvi kimliyini qoruyub saxlamaqla dünyaya, bəşəri dəyərlərə inteqrasiya, digər xalqların mədəni irsinə yüksək hörmət və ehtiramın nümayişidir. Vurğulanıb ki, ədibin Azərbaycan ədəbiyyatına bəslədiyi sevgi, müasiri olduğu şair və yazıçılarımızla dostluq və yaradıcı əməkdaşlıq etməsi, Bakı şəhərinə olan xüsusi rəğbəti hər iki xalqın ədəbi tərcümeyi-halının işıqlı səhifələrindəndir.

Yubiley mərasimində iştirak edən şairin qızı, Dağıstan Təsviri İncəsənət Muzeyinin direktoru Salihət Həmzətova jurnalistlərə açıqlamasında vaxtilə valideynləri ilə bir neçə dəfə Bakıya gəldiyini, atasının Səməd Vurğun və Nəbi Xəzri ilə dostluğunu, görüşlərini gözəl xatırladığını bildirib. "Atam Azərbaycana, eləcə də yaxın dostu Səməd Vurğuna çoxlu sayda şeirlər həsr edib. "Dostuma" şeiri bizdə çox məşhurdur, hətta ona musiqi də yazıblar. Çoxları bunun xalq mahnısı olduğunu düşünür. 1997-ci ildə dahi Heydər Əliyevin dəvəti ilə atamın Bakıya səfərini də heç vaxt unutmayacağam", – deyə o bildirib.




Yubiley gecəsində şairə həsr olunmuş ədəbi-musiqili tamaşa nümayiş olunub. Dağıstanın və Rusiyanın aktyor heyətinin yer aldığı səhnə kompozisiyasında şairin həyatının mərhələləri, yaradıcılığının bəşəri miqyası və poetik istedadı, habelə rus və dünya ədəbiyyatına verdiyi töhfələr əks olunub.

Proqramda Rəsul Həmzətovun sözlərinə yazılmış populyar mahnılar səslənib. Musiqili hissədə azərbaycanlı ifaçılar da çıxış ediblər.

Xatırladaq ki, bundan öncə Bakıdakı Rus Evində və Beynəlxalq Muğam Mərkəzində Rəsul Həmzətovun 100 illiyi münasibətilə kitab təqdimatları, poeziya və musiqi axşamları keçirilib.

**L.Azəri**

# Yubiley silsiləsindən sonuncu sərgi – "Miniatürsayağı"



80 yaşını qeyd edən Xalq rəssamı Arif Hüseynovun yubileyi münasibətilə ilin əvvəlindən bir neçə sərgi-tədbir təşkil olunub.

Oktyabrın 13-də Azərbaycan Milli İncəsənət Muzeyində Arif Hüseynovun 80 illiyinə həsr olunmuş sərgilər silsiləsinin sonuncusu – "Miniatürsayağı" adlı sərgi açıldı.

Qeyd edək ki, yubiley sərgi tədbirləri Milli Məclisin Mədəniyyət komitəsi, Rəssamlar İttifaqı, Milli İncəsənət Muzeyi, "HüsnArt" təsviri sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

Milli İncəsənət Muzeyinin direktoru Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyev tədbiri açıq elan edərək qonaqları salamladı.

Rəssamlar İttifaqının katibi Xalq rəssamı Ağəli İbrahimov yubilyar həmkarını təbrik edərək yaradıcılığından söz açdı. Diqqətə çatdırdı ki, Arif Hüseynov əsl rəssam həyatı yaşayıb. Əsərlərində milli-mənəvi dəyərlərimizi peşəkarlıqla göstərən sənətkarın bu istiqamətdə folklora, adət-ənənəyə, maddi mədəniyyət nümunələrinə həsr etdiyi silsilə rəsmləri qədim miniatürlərimizə yeni və yaradıcı baxış hesab etmək olar.

Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev,



Əməkdar jurnalist Etibar Babayev, sərginin kuratoru Ziyarət Cabarova yubilyarı təbrik etdilər.

Bildirildi ki, rəssamın işlədiyi miniatürlərdə nağıllarımıza parlaq və fərdi cizgilərlə yeni həyat bəxş edilib, onlardakı sehr, müdriklik, ülviyyət, xalqımızın mifoloji dünyagörüşü xüsusi peşəkarlıqla təsvir olunub. Qeyd edildi ki, Arif Hüseynovun çoxşaxəli yaradıcılığının bir istiqaməti də kitablara çəkdiyi illüstrasiyalardır.

Sonda yubilyar çıxış edərək təşkil edilən tədbirlərin ideyasının yaranmasında ilk gündən dəstək göstərmiş Milli Məclisin Mədəniyyət Komitəsinin sədri mərhum Qənirə Paşayevanın xatirəsini dərin ehtiramla yad etdi. Fırça ustası dəvəti qəbul edib sərgiyə gələn hər kəsə təşəkkürünü bildirdi. Xalq rəssamı növbəti, 80-dən sonrakı həyatı üçün ona ilham verən tarixi Zəfərimizə və bütöv Azərbaycanımıza görə xalqımıza, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Sonra qonaqlar sərgi ilə tanış oldular. Oktyabrın 20-dək davam edəcək "Miniatürsayağı" sərgisinə 50 əsər daxildir.

**Lalə**

# Gəncə Dövlət Dram Teatrı İstanbulda festivalda iştirak edib



Gəncə Dövlət Dram Teatrı Mədəniyyət Nazirliyinin dəstəyi ilə İstanbulda V Maltəpə Beynəlxalq Teatr Festivalında iştirak edib. Avrasiya Teatrlar Birliyinin təşkilatçılığı ilə Maltəpə Bələdiyyəsinin dəstəyi ilə gerçəkləşən festivalda rejissor Tural Mustafayevin quruluşunda E.İoneskonun "Kral ölür" tamaşası nümayiş olunub.

Tamaşada əsas rolları əməkdar artistlər Elxan Abbasov, İlham Hüseynov, Sevda Orucova, Kəmalə Məmmədova və aktyorlar Günay Cabbarova, Ruslan Hüseynov ifa ediblər.

Kral Beranje rolunu oynayan Elxan Abbasov festivalın yekununda "Ən yaxşı kişi aktyoru" nominasiyasında mükafata layiq görülüb.

Onu da qeyd edək ki, teatrın direktoru Aqil Bəhramlı festivalın münsiflər heyətində yer alıb.

Festival zamanı Avrasiya Teatrlar Birliyinin toplantısı da keçirilib. Toplantıda qurumun Azərbaycan üzrə təmsilçisi, teatrın aktyoru Yusif Cəfərov da iştirak edib.

Festivalda ölkəmizlə yanaşı Türkiyə, Şimali Kipr, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Portuqaliya – ümumilikdə 20-dək ölkə təmsil olunub.

# "Molla Nəsrəddin" hərbçilər qarşısında

Füzuli Dövlət Dram Teatrının cari repertuarına yeni daxil olan "Molla Nəsrəddin" tamaşası N saylı hərbi hissədə əsgər və zabit heyəti üçün nümayiş olunub.



Dramaturq Xaqani Əliyevin eyniadlı pyesi əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Nicat Mirzəzadə, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Ziyad Süleymanzadədir. Rolları Sehran Xanlarov, İntizar Quliyeva, Asif Şirinov, Qaçaq Qarayev, Əli Hüseynov, Sevinc Məmmədova, Şəlalə Nəsirova, Elçin Məmmədov, Vüqar Babayev, Emin Abışov, Vüsal Həsənov və başqaları ifa edirlər.

Molla Nəsrəddinin evlənmə hekayəsindən bəhs edən şən musiqilər, rəqslərlə zəngin tamaşada maraqlı və gülməli hadisələr bir-birini əvəz edir.

# "Qarabağnamə" Qusar səhnəsinə də çıxacaq

Qusar Dövlət Ləzgi Dram Teatrında Xalq yazıçısı İlyas Əfəndiyevin "Qarabağnamə" əsəri əsasında tamaşanın məşq prosesi başlanıb.

Tamaşanın quruluşçu rejissoru Bağır Əhmədov, quruluşçu rəssamı Bədəl Bədəlov, musiqi tərtibatçısı Şaiq Qardaşovdur.

İlin sonunadək tamaşaçılara təhvil veriləcək səhnə əsərində rolları Həsrət Həsrətov, Tacir Şahbazov, Pirverdi Pirverdiyev, Yalçın Qaraxanov, Tofik Mustafayev, Lalə Qurbanova, Emma Xeyirbəyova, Ramella Mahmudova, Malik Ramazanov, Elnur Hacıyev və Samir Babayev ifa edirlər.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (70)

### 1997-ci il 20 aprel

Prezident Heydər Əliyev Xalq artisti, görkəmli səhnə ustası Nəsibə Zeynalovanı 80 illiyi münasibətilə təbrik edib. *"60 illik səhnə həyatınız yeni nəsillər üçün sənətə sonsuz sədaqət və əsil fədakarlıq nümunəsidir",* – deyə təbrik məktubunda vurğulanırdı.

### 1997-ci il 21 aprel

Kalmikiyanın Xalq şairi David Kuqultinova 75 illik yubileyi münasibətilə təbrik məktubu göndərib.

### 1997-ci il 26 aprel

Azərbaycanın, Rusiyanın və SSRİ-nin Xalq artisti Lyudmila Zıkinanı yaradıcılıq fəaliyyətinin 50 illiyi münasibətilə təbrik edib.

### 1997-ci il 29 aprel

Prezident Sarayında görkəmli musiqiçi Mstislav Rostropoviç, onun xanımı Qalina Vişnevskaya və ailəsinin digər üzvləri ilə görüşdə çıxış edib.

*"...Mən şad oldum ki, dəvətinizi alıb Parisə gəldim, orada Sizin 70 illiyinizə həsr olunmuş mərasimlərdə iştirak etdim. Bu mərasimlər çox əla keçdi, mənə silinməz təəssürat bağışladı. Sevinirdim ki, dostumuz, həmyerlimiz belə geniş beynəlxalq nüfuza malikdir... Bununla yanaşı, Paris Parisdir, Moskva Moskvadır, Bakı isə planetimizin görkəmli adamı olan Mstislav Rostropoviçin dünyaya gəldiyi torpaqdır. Sizin dəvəti qəbul edib bizə təşrif gətirməyiniz bir daha sübut edir ki, keçmişdə nə varsa hamısını, öz mənşəyinizi, doğulduğunuz torpağı yüksək qiymətləndirirsiniz.*

*...Burada 70 illiyinizi qeyd etməyimizlə əlaqədar mən bu gün Sizin Azərbaycanın yüksək ordeni – "Şöhrət" ordeni ilə təltif olunmağınız haqqında fərman imzaladım. Gördüyünüz kimi, bu necə böyük xoşbəxtlikdir: Siz şöhrətlisiniz və Azərbaycanın yüksək mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmisiniz...".*

***

Həmin gün Mstislav Rostropoviçin 70 illiyinə həsr edilmiş yubiley şənlikləri çərçivəsində R.Mustafayev adına Dövlət İncəsənət Muzeyində Azərbaycan incəsənət ustalarının konsertində olub.

### 1997-ci il 30 aprel

Bakı Musiqi Akademiyasında maestro M.Rostropoviçin şərəfinə təşkil edilmiş təntənəli mərasimdə iştirak edib.

### 1997-ci il 2 may

Respublika Sarayında Mstislav Rostropoviçin 70 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində iştirak edib.

*"...Bu gün biz simfonik musiqidən ibarət gözəl konsertin şahidi olduq. Bir azərbaycanlı, Azərbaycanın Prezidenti kimi fəxr edirəm ki, Azərbaycan xalqı belə zəngin mədəniyyətə, zəngin incəsənətə, peşəkar musiqiyə malikdir. Azərbaycanda peşəkar musiqinin əsasını böyük Üzeyir Hacıbəyov qoyubdur. Onun məktəbi, tələbələri, silahdaşları XX əsrdə Azərbaycanda çox yüksək musiqi mədəniyyəti yaradıblar. Biz bununla fəxr edirik. Əziz Slava, bütün bunlarda 20-ci illərin əvvəlində Azərbaycana gəlmiş Sizin atanızın böyük xidməti var. O, Azərbaycanın qabaqcıl insanları ilə birlikdə, böyük Üzeyir Hacıbəyovla birlikdə peşəkar musiqinin, ali musiqi təhsilinin əsasını qoymuşdur... Bu gün mən qərar qəbul etmişəm ki, Sizin doğulduğunuz, valideynlərinizin yaşadıqları, Sizin uşaqlıq illərinizin keçdiyi mənzil indən belə Rostropoviçlərin xatirə ev-muzeyi olacaqdır...".*

### 1997-ci il 6-7 may

Türkiyəyə rəsmi səfəri çərçivəsində Ankaranın küçələrindən birinə – 3-cü caddəyə Azərbaycan prospekti adı verilməsinə həsr olunmuş mərasimdə çıxış edib. Bilkənd Universitetinin qurucusu həkim və alim Ehsan Doğramacı ilə görüşüb. Toğrul Qəniyevin dirijorluq etdiyi Bilkənd Universiteti akademik orkestrin konsertinə baxıb. Ankara Dövlət Opera və Balet Teatrında olub, Əhməd Adnan Sayqunun "Yunis Əmrə və sevgi" oratoriyasına tamaşa edib.

İzmirdə "Bakı" parkının və "Heydər Əliyev" bulvarının açılışında (7 may) nitq söyləyib.

*"...Biz bu günlərdə bir daha gördük, bir daha hiss etdik ki, türk və Azərbaycan xalqlarının dostluq və qardaşlığı nə qədər dərindir, güclüdür, nə qədər möhkəmdir. Əgər tarixi götürsək, bizim tariximiz də, keçmişimiz də, dilimiz də, dinimiz də, adət-ənənələrimiz də, musiqimiz də, mədəniyyətimiz də birdir. Biz böyük bir çinar ağacının budaqlarıyıq və bu da o qədər möhkəm çinardır ki, əsrlər boyu onu nə qədər silkələdilərsə də, yıxmaq istədilərsə də, bizi bir-birimizdən ayırmaq istədilərsə də bacarmadılar. Bizim qəlbimiz, bizi bir-birimizə bağlayan tellər, mənəviyyat dostluğumuzu, qardaşlığımızı, birliyimizi qorudu, saxladı...*

*İzmir şəhəri ilə Azərbaycanın paytaxtı, başkəndi Bakı şəhəri arasında on iki il bundan öncə qardaşlıq haqqında müqavilə imzalanması böyük hadisə olmuşdur. Xatirimdədir, Bakı dünyanın bir çox şəhərləri ilə qardaşlaşmışdı. Amma Türkiyə şəhərləri ilə bizim şəhərlərimizin qardaşlaşmasına yol vermirdilər. Amma on iki il bundan öncə İzmir ilə Bakı arasında yaradılmış əlaqələr yeni qardaşlaşma əlaqəsi deyildi, – biz doğulandan qardaşıq, ata-babalarımız, ulu babalarımız qardaş olublar, biz doğma qardaşıq.*

*Türkiyə-Azərbaycan, İzmir-Bakı daim qardaş olublar, bu gün də qardaşdırlar, gələcəkdə də qardaş olacaqlar. Bunun da təzahürü olaraq Bakıda ən gözəl parklardan birinə "İzmir" adı verilibdir. Mən çox məmnunam ki, burada, İzmir şəhərində də, bu sahildə parkın gözəl bir hissəsinə "Bakı" adı verilibdir.*

*...Bu, bizim dostluq, qardaşlıq əlaqələrimizdə bir zərrədir. Amma zərrə-zərrə göl olur, dərya dolur. Bax, bu zərrələrlə biz ümumi Türkiyə-Azərbaycan dostluğunu daha da genişləndirməli, gücləndirməliyik...".*

### 1997-ci il 23 may

Azərbaycan musiqisinin pərəstişkarı və ifaçısı, ABŞ-də yaşayan Cefri Verbaxı və onun həyat yoldaşı Aynur xanımı qəbul edib.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# “Sabaha qalmayan qisas”

## İstiqlal Muzeyində sərgi

Azərbaycan İstiqlal Muzeyində 44 günlük Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş “Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün” adlı layihə çərçivəsində “Sabaha qalmayan qisas” adlı tədbir-sərgi keçirilib.



Qeyd edək ki, ölkə başçısının Zəfər muzeyinin və Memorial kompleksin yaradılması barədə imzaladığı sərəncamın icrası ilə bağlı Mədəniyyət Nazirliyinin müvafiq əmrinə əsasən, 2021-ci ildən Azərbaycan İstiqlal Muzeyi tərəfindən şəhid ailələri ilə görüş keçirilir və şəhidlərin şəxsi əşyaları Zəfər muzeyi üçün toplanılır.

Bu qəbildən növbəti tədbirdə şəhid mayor Rəşad Budaqovun, şəhid əsgər Səbuhi Əsədovun, şəhid leytenant Elzar Yusubovun, şəhid gizir Orxan Cabbarovun, şəhid əsgər Qardaşxan Əhmədlinin və şəhid çavuş Taleh Namazovun ailə üzvləri iştirak ediblər.

İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli layihə barədə məlumat verib. Bildirilib ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onların qəhrəmanlığını gələcək nəsillərə nümunə göstərmək hər birimizin borcudur.

Sonra muzeyin fondlarında qorunub saxlanılan Vətən müharibəsi şəhidlərinin şəxsi əşyaları, fotoşəkillər, sənədlər və müxtəlif hərbi geyimlərinə baxış olub.

# Məmməd Arazın 90 illiyi münasibətilə

Oktyabrın 14-də Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Məmməd Arazın (1933–2004) anadan olmasının 90-cı ildönümü tamam oldu.




Məmməd Araz Azərbaycan ədəbiyyatında zəngin ədəbi irsə, sənətkarlıq qüdrətinə malik söz ustadıdır. Müasir ədəbi fikrin və milli azadlıq ideyalarının formalaşmasında Məmməd Araz poeziyasının müstəsna yeri və rolu olub.

***

Yubiley münasibətilə Birinci Fəxri xiyabanda, Məmməd Arazın məzarı önündə Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə tədbir keçirilib. Məmməd Araz poeziya günü çərçivəsində keçirilən tədbirdə tələbələr, yazarlar, şairin yaxınları iştirak ediblər.

“Məmməd Araz poeziya günü” layihəsinin rəhbəri, universitetin müəllimi Qardaşxan Əzizxanlı vurğulayıb ki, şairin yaradıcılığının əsas qayəsini yurdun azadlığı, müstəqilliyi və bölünməzliyi, bütöv Azərbaycan ideyası təşkil edib. O, layihə çərçivəsində keçiriləcək tədbirlər barədə məlumat verib.

Universitetin tələbələri Məmməd Arazın şeirlərini söyləyiblər.

Şair Ağacəfər Həsənli, şair-publisist Əbülfət Mədətoğlu və digər çıxış edənlər Məmməd Arazla bağlı xatirələrini danışıb, unudulmaz ədibin poeziyasına öz sevgilərini izhar ediblər.

Şairin qızı Şəlalə İbrahimova tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

***

Bakı Dövlət Universitetinin (BDU) Filologiya fakültəsində Məmməd Arazın 90 illiyinə həsr olunmuş ədəbi-bədii tədbir keçirilib.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu şairin yaradıcılığından söz açıb. Bildirib ki, mənalı, keşməkeşli və şərəfli, bütövlükdə Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşayan Məmməd Araz vətəndaş qeyrətli ədəbiyyat nəhəngidir. Onun yaradıcılığının baş qəhrəmanı Azərbaycandır. Ona görə də bu görkəmli şair milli azadlıq ideyalı əsərləri ilə xalqımızın yaddaşına əbədilik həkk olunub.

Şimali Kiprdəki Lefke Avropa Universitetinin dosenti Nazim Muradov şairin yaradıcılığının nəinki Azərbaycan, ümumən türk xalqları ədəbiyyatının mühüm ədəbi-mədəni hadisəsi olduğunu vurğulayıb.

Filologiya fakültəsinin dekan müavini Anar Fərəcov şairin vətənpərvərlik, doğma torpağa, təbiətə məhəbbət mövzularında şeirlərinin əhəmiyyətindən bəhs edib.

Tədbir çərçivəsində Məmməd Arazın əsərlərindən ibarət kitab sərgisi təşkil edilib, şairin ömür yolu ilə bağlı film nümayiş olunub. Filologiya fakültəsinin tələbələri şairin şeirlərini söyləyiblər.

# Türk diplomatiyasının 500 illiyi qeyd olunub

Oktyabrın 16-da AMEA və Türkiyənin Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə “500 illik uğurlu diplomatiya: keçmişdən bu günə Türk Xarici İşlər Təşkilatı” mövzusunda panel və sərgi keçirilib.




Əvvəlcə Türkiyə diplomatiyasının (Osmanlı və Cümhuriyyət dövrü) 500 illiyinə həsr olunmuş sərgiyə baxış keçirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qeyd edib ki, konfrans qardaş Türkiyənin, onun diplomatiyasının keçdiyi inkişaf yolunu xalqımıza daha da dərindən tanıtmağa xidmət edir.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı tədbirin bir əsr öncə Birinci Türkoloji Qurultayın keçirildiyi bu salonda baş tutmasının tarixi əhəmiyyəti olduğunu deyib və AMEA rəhbərliyinə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev tərəfindən Xankəndidə, Xocalıda Azərbaycan bayrağının ucaldılması münasibətilə xalqımızı təbrik edən səfir Cahit Bağcı bu tarixi hadisəni bütün Türk dünyasının həsrətlə gözlədiyini söyləyib. Qeyd edib ki, Xankəndidə və Xocalıda yüksəldilən Azərbaycan bayrağı heç vaxt enməyəcək.

Daha sonra panel iclasları keçirilib.

# “Şuşa Türk dünyasının mədəniyyət paytaxtı” kitabının və poçt markasının təqdimatı keçirilib

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü və layihəsi ilə “Şuşa Türk dünyasının mədəniyyət paytaxtı” adlı 5 dildə (Azərbaycan, özbək, türk, ingilis, rus) ensiklopedik nəşr və Şuşaya aid poçt markası hazırlanıb. Kitab Azərbaycan Mədəniyyət Nazirliyi ilə AMM-in birgə layihəsi əsasında çap olunub.

Oktyabrın 13-də Şuşada keçirilən I Türk Dünyası Mədəniyyət Forumu çərçivəsində nəşrin və markanın təqdimatı olub.

Təqdimatda AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Daşkənd Dövlət Pedaqoji Universitetinin professoru, Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov, Milli Məclisin deputatı akademik Nizami Cəfərov, Xalq şairi Sabir Rüstəmxanlı və Özbəkistandakı Heydər Əliyev adına AMM-in direktoru Samir Abbasov çıxış ediblər.

Samir Abbasov bildirib ki, kitabın hazırlanmasında məqsəd Türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhəri haqqında məlumatları bir mənbədə toplamaq və müxtəlif dillərdə oxuculara təqdim etməkdir. Nəşrdə Şuşanın keçmişi, işğaldan əvvəlki dövrü ilə yanaşı, onun azad olunmasından sonrakı dövrünə aid məlumatlar da yer alıb.

Daşkənddəki “Niso Poligraf” nəşriyyatında işıq üzü görən nəşrdə Azərbaycanın qədim şəhəri, mədəniyyət paytaxtı olan Şuşa haqqında vacib faktlar, şəhərin tarixi, mədəni irsi, ədəbi mühiti, tanınmış mədəniyyət, incəsənət, ədəbiyyat xadimləri, ictimai həyatı, iqtisadiyyatı, abidələri, tikililəri, təbiəti, turizm məkanları, azad Şuşada aparılan quruculuq işlərinə dair məlumatlar, fotoşəkillər yer alıb. Şuşada keçirilən beynəlxalq və yerli tədbirlər, habelə Özbəkistanda və Türkiyədə Şuşa ilə bağlı reallaşdırılan layihələr də nəşrdə əksini tapıb.



Nəşrdə qeyd olunur ki, 2022-ci ildə “Şuşa İli” və 2023-cü ildə Şuşanın “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə əlaqədar Özbəkistandakı Heydər Əliyev adına AMM bir sıra layihələr həyata keçirib. XIX əsrdə Şuşada fəaliyyət göstərmiş “Məclisi-fəramuşan” poeziya məclisi Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi və iki ölkənin gənc şairlərinin iştirakı ilə yenidən bərpa edilib, Şuşa şəhər kitabxanası ilə Özbəkistanın Turon kitabxanası arasında “qardaş kitabxanalar” haqqında müqavilə imzalanıb, Turon kitabxanasında “Şuşa guşəsi” yaradılıb, Termiz Dövlət Universitetində “Xurşidbanu Natəvan adına Azərbaycan mərkəzi” fəaliyyətə başlayıb, Natəvanın şeirləri özbək dilinə tərcümə və nəşr edilib. Bundan əlavə, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə birlikdə “Özbəkistanda Şuşa günləri” adlı silsilə tədbirlər keçirilib, Özbəkistan səhnələrində müsəlman Şərqində ilk operanın müəllifi Üzeyir Hacıbəylinin əsərlərindən ibarət konsertlər təşkil edilib, Azərbaycanın Şuşa və Özbəkistanın Xivə şəhərlərinin qardaşlaşması layihəsi reallaşıb.

Tədbirdə AMM-in layihəsi ilə hazırlanan poçt markası barədə də məlumat verilib. Poçt markasının üzərində Şuşa qalası, Azərbaycanın bayrağının təsviri, Qarabağın – Şuşanın füsunkar təbiəti, başını duman almış əzəmətli dağları, tanınmış şuşalıları, milli musiqi alətlərimizi (qaval, tar, kaman) əks etdirən elementlər, habelə Qarabağın, Şuşanın və tarixi Zəfərin simvolu olan xarıbülbül çiçəyinin rəsmi əksini tapıb.

Markanın Özbəkistan Mərkəzi Poçtu tərəfindən dövriyyəyə buraxılması nəzərdə tutulub.

Çıxış edən natiqlər hər iki layihəni yüksək dəyərləndirib və bu işdə əməyi keçənlərə minnətdarlıqlarını bildiriblər.

# Səhnədən səhifələrə düşən işıq...

## Xalq artisti Yasin Qarayev haqqında kitabın təqdimatı

Mənə görə, ona səhnənin, teatrın işıqlı adamı demək olar. Nikbin, əzmkar, zəhmətkeş. Yaş ötdükcə daxili qaranlıqları ilə döyüşən adamların əksinə, xeyli həyatsevər və şaqraqdır. Xalq artisti Yasin Qarayev lirik-psixoloji və dramatik komediya aktyorluq məktəbinin estetik səciyyələri əsasında formalaşan sənətkardır.



Oktyabrın 12-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında bu teatrın tanınmış aktyoru Yasin Qarayevin 75 illiyinə həsr olunan “Alın yazısına inam” adlı kitabın (müəllif İlham Rəhimli) təqdimat mərasimi keçirildi.

Tədbirin aparıcısı zaman-zaman Yasin müəllimlə tərəf-müqabil olan Əməkdar artist Elnur Bəhramxan sənət ocağı və onun keçdiyi yola qısa nəzər saldı.

95 illik yaradıcılıq yoluna, zəngin sənət ömürlüyünə malik teatrın Azərbaycanın səhnə mədəniyyətinə bəxş etdiyi müqtədir sənətkarları sadaladı, onların içərisində özünəməxsus yeri və dəst-xətti olan Y.Qarayevin sənətkarlıq məziyyətlərindən danışdı. Bildirdi ki, bir sənətkar ömrünə teatrşünas baxışı olan kitab aktyor və insan olaraq hər kəsin sevgi və rəğbətini qazanmağı bacaran Y.Qarayev ömrünə yeni yanaşmadır.

Aktyorun xoş gününü təbrik edənlərdən biri də teatrın direktoru Naidə İsmayılzadə oldu. O, Y.Qarayevin klassik aktyorluq məktəbi təmsilçisi kimi səhnədə, sənətdə özünəməxsus iz qoyduğunu, böyük tamaşaçı auditoriyasının məhəbbətini qazandığını dedi. Direktor kitabın müəllifi, teatrşünas, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimliyə təşəkkürünü bildirdi.

Təbrikə gələnlər arasında Azərbaycan Teatr Xadimləri İttifaqının yaradıcılıq işləri üzrə sədr müavini və ittifaqın sədr vəzifələrini müvəqqəti icra edən Xalq artisti Hacı İsmayılov da var idi. O da özünəməxsus koloritli oyun üslubu ilə seçilən Y.Qarayevin sənət xarakteristikasından söz açdı, aktyor kimi səmimiyyəti, səhnə məlahəti, istənilən obraza qatmış olduğu çalarlardan danışdı. Bildirdi ki, aktyorun səs tembri, aydın nitqi, hər obrazın xarakterik xüsusiyyətlərini ustalıqla duyub tamaşaçıya çatdırmaq qabiliyyəti var.

Xalq artisti Tariyel Qasımov isə həmkarının sənətkarlıq xüsusiyyətləri və lirik-psixoloji, komik obrazlar ilə yanaşı, dramatik əsərlərdə də fərqli aktyor keyfiyyətlərini qabarıq büruzə verdiyini dedi. Dedi ki, Y.Qarayev səhnədə cəld və çevik, dinamik və cazibədar, yaddaqalan və fərqlidir.

Daha sonra kitabın müəllifi İlham Rəhimli çıxış edərək bir sıra məqamlara, ümumilikdə teatr, aktyor sənəti və onun bu günü ilə bağlı məsələlərə diqqət çəkdi, Gənc Tamaşaçılar Teatrında vaxtilə çalışan sənətkarlardan da bəhs etdi. Kitabın yazılma səbəbindən danışan alim Y.Qarayevin sənətinin hər zaman yüksək qiymətləndirildiyini bildirdi: “Bu teatrda Yusif Vəliyev, Osman Hacıbəyov, Süsən Məcidova kimi böyük sənətkarlar olub. Çox təəssüflənirəm ki, adlarını çəkdiyim bu qüdrətli sənətkarlar haqqında kitab yazılmadı. Yasin Qarayevi mən 1975-ci ildən yaxından tanıyıram. Onun sənətinə diqqət və məsuliyyəti sayəsində sonradan səmimi dostluğumuz da yarandı. Bu kitabı da, əslində, onun 75 illik yubileyinə hədiyyə etmək məqsədilə qələmə aldım. Zaman elə gətirdi ki, bu nümunə onun 77 yaşında ərsəyə gəldi və beləcə, həm də 50 illik bir sənət ömürlüyünün qısa icmalı rolunu oynamış oldu. Şadam ki, bu gün “Alın yazısına inam” adlı bu kitab vasitəsilə sizlər bir insanın həyat-ömür şəcərəsi ilə yanaşı, uzun və səmərəli yaradıcılıq yolunu da oxuyub-izləmək imkanı qazanacaqsınız. Könül istər ki, Yasin müəllim kimi başqa sənət fədailərimizin də səhnədə keçən dolğun ömürləri kitablara mövzu olsun və mən bu işi sevə-sevə görməyə hazıram. Təki o kitabların çapını üzərinə götürən naşirlər, qurumlar da bu işə maraqlı olsunlar”.

Sonda Y.Qarayev çıxış edərək onu bir aktyor və insan kimi həssaslıqla duyan və bunları ustalıqla kitaba çevirən müəllifə və mərasimə gələn hər kəsə təşəkkürünü bildirdi.

Bütün imza günləri, təqdimatlar kimi bu tədbirin də bir oxucu olaraq mənim üçün ən gözəl tərəfi məhz kitabın müəllifi ilə qəhrəmanı arasındakı incə yumorlu söhbətləşmə və munis imza mərasimi anı idi. Tədbir boyu mənim diqqətimi çəkib, bir az da kövrəldən başqa bir məqam oraya toplaşan aktyorların daxili həyəcan və buna rəğmən o hissə, o amansız reallığa meydan oxuyan təsəlli dolu mətin duruşları idi. Bir zamanlar o səhnədə bütün ömürləri keçən yaşlı nəsil nümayəndələri ilə gənclər arasındakı qəribə bir təzad, nisgil, daha doğrusu, dünən ilə bu günün qarşı-qarşıya dayanması və dayanışması da başqa bir izharı müşkül mənzərə idi...

**Həmidə Nizamiqızı**

# Repressiya qurbanı olan görkəmli folklorşünas

Azərbaycan xalqının müxtəlif zamanlarda yaratdığı əfsanə, nağıl və dastanlar əsrdən-əsrə, nəsildən-nəslə keçərək günümüzə qədər gəlib çatıb. Bu mənəviyyat xəzinəsinin toplanması və zənginləşməsində folklorşünas alimlərimizin böyük xidmətləri var. Onlardan biri ədəbiyyatşünas, mətnşünas, Azərbaycan şifahi xalq ədəbiyyatının ilk tədqiqatçılarından olan Hənəfi Zeynallıdır. Görkəmli alim topladığı folklor nümunələrini ilk olaraq kitabça şəklində nəşr etdirib, bu mövzuda nəzəri əhəmiyyətli məqalələr qələmə alıb.



Məlumdur ki, ötən əsrin 30-cu illərində Azərbaycan alimləri böyük faciələrlə üzləşib. Elmin müxtəlif sahələrində çalışan istedadlar repressiyaya məruz qalıblar. Hənəfi Zeynallı da ömrü faciə ilə bitən elm fədailərindəndir.

Hənəfi Baba oğlu Zeynallı 1896-cı ildə Bakının Mərdəkan qəsəbəsində dəmirçi-nalbənd ailəsində dünyaya göz açır. Uşaq yaşlarında valideynlərini itirsə də, təhsilindən qalmır. Əvvəl mədrəsədə, sonra rus-müsəlman orta məktəbində oxuyur. 1916-cı ildə Bakıdakı İmperator Texniki Peşə Məktəbinə daxil olur. Bir il burada oxuyur. 1917-ci ildə ölkədə baş verən siyasi dəyişiklik nəticəsində təhsilini davam etdirə bilmir.

1922-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olur. Təhsilini başa vurduqdan sonra universitetin Şərq fakültəsinin Azərbaycan türk ədəbiyyatı tarixi kafedrasında, sonra isə Azərbaycan Pedaqoji İnstitutunda işləyir. Eyni zamanda Azərbaycan Dövlət Nəşriyyatında (“Azərnəşr”) baş redaktor vəzifəsində çalışır. “Kommunist”, “Maarif və mədəniyyət”, “İnqilab və mədəniyyət”, “Maarif işçisi” jurnalları ilə əməkdaşlıq edir, bu nəşrlərdə ədəbi-publisistik yazılar və folklor sahəsində tədqiqatlarını dərc etdirir.

Onun əsərləri içərisində 1926-cı ildə ərsəyə gətirdiyi “Azərbaycanın atalar sözləri və məsəllər” kitabının xüsusi dəyəri var. Kitabda dörd minədək atalar sözü və məsəl toplanıb. O, daha sonra “Azərbaycan tapmacaları” (1928) kitabını nəşr etdirir. Bu kitabı müəyyən elmi prinsiplər əsasında işləyir. Kitaba böyük bir müqəddimə yazır. Dövri mətbuatda dərc etdirdiyi “Ağız ədəbiyyatı”, “Azərbaycan ədəbiyyatı”, “Oktyabr inqilabı və Azərbaycan folkloru” və s. məqalələri ilə də diqqət çəkir.

H.Zeynallı Azərbaycan xalqının adət-ənənələrini, məişət tərzini, ədəbiyyatını, folklorunu dərindən bilib. Onun “Azərbaycan tapmacaları” kitabında tapmacalar haqqında söylədiyi fikirlər Azərbaycan folklorşünaslığı üçün yeni olub. O, tapmacaları ayrıca deyil, Azərbaycan folklorunun başqa janrları ilə, xüsusilə, atalar sözləri və bayatılarla əlaqəli şəkildə təhlil edir. Göstərir ki, tapmacalar iki və daha artıq şəxs arasında mükalimə (sual-tapmaca və onun cavabı) şəklində meydana gəlir. Buna görə də tapmaca atalar sözü və bayatıdan fərqli olaraq daha çox kollektiv əməyinin məhsuludur. Onlar məclis, şənlik və tapmaca gecələrində kollektiv tərəfindən yaradılır.

H.Zeynallı 1935-ci ildə Azərbaycan nağıllarından ibarət kitab tərtib edərək rus dilində də nəşr etdirir. Kitabı görkəmli rus folklorşünası, professor M.Y.Sokolov redaktə edir.

Alim 1929-cu ildən başlayaraq təqib və təhdid edilir. Cümhuriyyətçilərlə, xüsusilə Bəkir Çobanzadə ilə münasibət qurmaqda günahlandırılır. İttihamlardan biri onun əsərlərində guya əksinqilabi, millətçi ideologiyadan yazması olur. 27 yanvar 1937-ci ildə həbs edilir. O artıq repressiyaya məruz qalmış Nazim Əfəndi, İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə və başqaları ilə əlaqə saxlamaqda, antisovet təşkilata üzv olmaqda ittiham edilir. H.Zeynallı bu ittihamları rədd edir.

Ancaq fevralın 24-dəki istintaqda o, gördüyü dözülməz işgəncələrdən sonra belə bir etiraf altına imza atır: “Bəli, mən əksinqilabi kitablar alırdım. Bəli, mən əksinqilabi təşkilatın üzvü idim. Cavad Bağırzadəni, Həbib Səmədzadəni, İmran Babayevi də həmin təşkilata cəlb etmişəm. Mən əksinqilabi millətçi kadrlar tərbiyə edib yetişdirmişəm. Türkiyəyə meyil etmək baxımından Azərbaycanın SSRİ-dən ayrılmasına tərəfdar idim və s...”.

Hənəfi Zeynallı ən ağır cəzaya – güllələnməyə məhkum edilir. 1937-ci ildə oktyabrın 13-də hökm yerinə yetirilir.

İyirmi il sonra, 30 mart 1957-ci ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarına əsasən, 12 sentyabr 1937-ci ildə SSRİ Ali Hərbi Kollegiyasının Hənəfi Baba oğlu Zeynallının istintaq işi üzrə çıxartdığı hökm dəyişdirilir. Görkəmli alim ölümündən sonra bəraət alır...

**S.Fərəcov**

# Fiziki məhdudiyyətli uşaqlarla "Oxu saatı"

F.Köçərli adına Respublika Uşaq Kitabxanası və "Səssiz Ünsiyyət" Jest Dilinin İnkişafına Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə oktyabrın 13-də Bakı Kitab Mərkəzində eşitmə və nitq məhdudiyyətli uşaqlar üçün növbəti "Oxu saatı" keçirilib.



Tədbirin qonağı şairə, musiqiçi, aktrisa, Azərbaycan Uşaq Fondunun sədr müavini Zəhra Bədəlbəyli olub. Onun "Qarabağ şahzadəsi və göydən düşən nağıllar" kitabından oxuduğu nağıl və hekayələri sağlamlıq imkanları məhdud uşaqlar üçün jest dilinə "Səssiz Ünsiyyət" təşkilatının təlimçisi Könül Quliyeva çevirib.

Tədbirin keçirilməsində əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə daha dolğun inteqrasiyasına, onların özlərini inkişaf etdirməsinə, sosial reabilitasiyasına köməklik etməkdir.

# Özbəkistan Xoreoqrafiya Akademiyasının rektoru BXA-da ustad dərsi keçib



Özbəkistan Dövlət Xoreoqrafiya Akademiyasının rektoru professor Şuxrat Toxtasimov Bakı Xoreoqrafiya Akademiyasında (BXA) klassik rəqsin tədrisi nəzəriyyəsi və metodikası fənni üzrə ustad dərsləri keçib.

Ustad dərslərində BXA-nın klassik rəqs fənn müəllimləri, baletmeyster və xoreoqraflar iştirak ediblər.

Ş.Toxtasimov BXA-nın tam orta məktəb, orta ixtisas təhsili və bakalavr pillələrinin şagird və tələbələrinə klassik rəqsdə tədris olunan oğlan və qız rəqslərində əl və ayaqların duruş dərəcə və hərəkətlərinin incəliklərini nümayiş etdirib. Dəzgah qarşısında tələbələr müvafiq rəqs hərəkətlərini icra ediblər.

Özbəkistan Dövlət Xoreoqrafiya Akademiyasının rektoru BXA-nın orta ixtisas təhsili pilləsinin məzunlarının diplom təqdimatı mərasimində də iştirak edib.

Ustad dərsləri yekunlaşandan sonra Şuxrat Toxtasimov Bakı Xoreoqrafiya Akademiyasının rəhbər heyəti ilə görüşüb. Görüşdə iki ali təhsil müəssisəsinin əməkdaşlığının genişləndirilməsi müzakirə olunub, gələcək birgə layihələr barədə fikir mübadiləsi aparılıb.

# Türk dünyasından qısa filmlər

## III "Qorqud Ata" kinofestivalından təəssürat





Respublikamızın ev sahibliyi etdiyi III "Qorqud Ata" Türk Dünyası Film Festivalında (8-11 oktyabr) ümumilikdə 30-dan bədii (tam və qısametrajlı) və sənədli ekran əsəri nümayiş olundu. Onlardan bir neçəsi haqqında "Mədəniyyət"in ötən saylarında bəhs edilib. Bu yazıda festivalda seyr etdiyimiz dörd qısametrajlı filmdən söz açacağıq.

### "Dağ adamının qanadları. Qaraçay atları"

Kabardin-Balkar Respublikasından (Rusiya Federasiyası) rejissor Maqomed Kumıkovun festivala təqdim etdiyi film Qaraçay atlarından bəhs edir. Kadrarxası mətnin sovet teleməkanının məşhur "Heyvanlar aləmində" verilişinin aparıcısı Nikolay Drozdovun oxuması filmin cəlbediciliyini daha da artırır.

Atlar tarix boyu gözəllik, sədaqət və dözüm rəmzi olublar. Filmin qəhrəmanı olan Qaraçay atları ilin dörd fəslinin fonunda təqdim edilir. Film boyunca Elbrus dağının yamaclarının sərt gözəlliyi, bu sərt gözəllikdən doğmuş Qaraçay atları, bu cinsin qorunub-saxlanılmasından ötrü hər şey edən atçıların fəaliyyəti informativ dillə romantik bir halədə təqdim edilir. Filmdən öyrənirik ki, bir ara sayı azalıb yox olmaq təhlükəsi ilə üzləşən Qaraçay at cinsi indi inkişaf dövrünü yaşayır. Onu doğuran xalq kimi çılğın, güclü, zəhmətkeş və şıltaqlıqdan uzaq xasiyyətə malik Qaraçay atlarının müxtəlif yaş dövrlərində görünüşü, davranışı son dərəcə gözəl təbiət fonunda üzvilik, harmoniya dolu kinohekayə təəssüratı yaradır.

### "Mamu"

Qaqauz rejissoru Mixail Rezunetin "Mamu" ("Ana") qısametrajlı bədii filmi bir çox meyarlar üzrə bu janrın bütün tələblərinə cavab verən ekran işidir. Əvvəlcə filmin yaradıcıları Qaqauziyada (Moldovanın Qaqauz Yeri muxtar bölgəsi) vaxtilə yaşanmış aclığı ekrana gətirmək istəyirmişlər. Lakin bu mövzu qısametrajlı film formatına uyğun gələ bilməzdi. Ssenari müəllifi qaqauz şair və yazıçısı Fyodor Zanet baş qəhrəmanda öz anasının obrazını təsvir edib. Bu rolda isə Beşgiöz kəndinin sakini 88 yaşlı Mariya Stoyanova çəkilib. Süjetin mərkəzinə qoyulan obraz filmin adını tamamilə əks etdirir.

Film qoca qarının Tanrıdan əmin-amanlıq və ruzi diləyən duası ilə başlayır. Əlində kağıza bükülmüş iki karamel konfeti var: nəvələrinə pay saxlamış nənə obrazı. Otağın görünüşü onun kasıb həyat tərzi sürdüyündən xəbər verir, hətta yatdığı taxt boyundan qısa olduğuna görə dizlərini qatlayıb yatdığını görürük. Amma bütün bunlara baxmayaraq, çöhrəsində göyçəkliyinin hələ də qaldığını sezməmək mümkün deyil.



Gəlini qarının qarşısına bir parça çörək və bir fincan çay qoyur. Qarı çörəkdən bir tikə qoparıb ağzına qoyub çay içmək istəyəndə gözləri zəif olduğu üçün əli fincana toxunur, çay yerə dağılır. Filmin bütün epizodlarında, əslində, bu evin sakinlərinin daxili vəziyyətinin çox dağınıq olduğu qabarır.

Ailənin bir yerə yığıldığı süfrə açılmır, hərə evin, həyətin bir tərəfindədir: qarının oğlu bostanda işləyir, gəlini ev işləri ilə məşğuldur, arada telefonla danışır, kiməsə güzəranından gileylənir. Qarı isə bu evin əvvəlki rahatlıq və toxluq saçan atmosferini qaytarmağa çalışır – gəlininə deyir ki, xəmir yoğur, çörək bişir. Lakin gəlin işlərinin onsuz da çox olduğunu səbəb göstərib bu işi qayınananın öhdəsinə buraxır. Qarı qalxıb həyətdə böyük bir ləyəndə xəmir yoğurmağa başlayır. Amma xəmiri yoğurub qurtarandan sonra acımaq üçün üstünü örtmək istəyəndə ləyəni masanın üstündən yerə aşırdır. Gəlin deyinə-deyinə ordan uzaqlaşır. Qarı isə yerə çömbəlib xəmiri əlləri ilə yenidən ləyənə toplayır. Otağına çəkilib ailəvi çəkdirdiyi cavanlıq fotosuna baxıb gülümsəyir. Sonra əsasına dayaqlanıb evdən çıxıb gedir. Son kadr bundan ibarət olur...

Qarını canlandıran Mariya Stoyanovanın oyun estetikası son dərəcə ifadəlidir. Az danışır, lakin üz ifadəsi, davranışı, hər bir hərəkəti o qədər məzmunludur ki, tamaşaçı təsirlənməyə bilmir. Şübhəsiz, bacarıqlı rejissor, operator və montajçı olmadan bu effekt alına bilməzdi. Ekran əsəri bayağı sentimentallıqdan çox uzaqdır. "Mamu" yaşlı nəslin mənəvi sıxıntılarını, cavan nəslin də (özü sosial çətinliklər məngənəsində qaldığı üçün) bu sıxıntıları azalda bilməməsini real cizgilərlə göstərir.

### "Dombra"

Dağıstanlı (Noqay bölgəsi) rejissor Arslan Bakiyevin yarısənədli, yarıbədii filmi sırf nəsihət tərzində, hətta vizual əyani vəsait təsirində olan, sxolastik bir filmdir.

Sinif yoldaşları ilə məktəbdən evə qayıdarkən bir yeniyetmə oğlan ayaq saxlayır, dombra ustasının işi onun diqqətini cəlb edir. Yoldaşlarından aralanıb emalatxanaya daxil olur və bu işdə saç ağartmış ustadan (Dağıstanın Əməkdar artisti, noqay dombrasının yeganə bərpaçısı Alibiy Romanov) nə işlə məşğul olduğunu, əlindəki əşyanın adını xəbər alır. Usta yeniyetmənin dombra ilə maraqlanmasından çox xoşhal olur və bu qədim musiqi aləti ilə bağlı danışmağa başlayır. Yeniyetmə oğlan belə hekayətləri çox sevdiyini, sabah yenilərini dinləməyə gəlmək və dombra düzəltməyi öyrənmək istədiyini deyir. Usta bundan daha da məmnun olur. Oğlan ustaya telefon nömrəsini də verib gedir. Amma ertəsi gün dediyi saatda gəlib çıxmır. Usta ona zəng edir. Dəstəyi anası götürüb deyir ki, oğlunun dombra ustasının yanında işi yoxdur, bu onunçün gərəksiz bir məşğuliyyətdir və oğlunu daha gərəkli məşğuliyyət olan ingilis dili məşğələsinə göndərib. Usta məyus-məyus başını yelləyib dəstəyi yerinə qoyur.




Film tamaşaçıya dombra ilə bağlı çox maraqlı hekayətləri quru, didaktik tərzdə çatdırır. Həm də bu didaktiklik birtərəflidir – hər hansı yeniyetmə xalqının qədim bir aləti ilə də maraqlana bilər, ingilis dili məşğələsinə də gedə bilər. Hətta ingilis dilini öyrənməsi gələcəkdə xalqının tarixini dünyaya yaymaqda ona kömək edə bilər. Amma filmdə bu iki məşğuliyyətin qarşı-qarşıya qoyulması artıq bir yanaşmadır...

### "Poçtalyon"

Qırğızıstanlı rejissor İbadulla Adjibayevin filmi dağ kəndində bir poçt işçisinin peşəsinə, vəzifəsinə məsuliyyətli münasibətinin müfəssəl və ifadəli ekran həlli sayıla bilər. Klassik sənədli film üslubunda çəkilmiş ekran əsərində ilk kadrdan sonuncusunadək ucqar dağ kəndinin poçtalyonunun iş günü, camaatla ünsiyyət mədəniyyəti, məsuliyyəti pafosdan uzaq detallarla canlanır.

Leylək rayonunun Kok-Taş kəndində poçtalyon işləmək böyük səbir və dözüm tələb edir. Həm də kadr çatışmazlığı üzündən o, Tacikistanla sərhəddə yerləşən Deyne kəndinin poçt işlərini də yoluna qoyur. Bu isə dağ yollarını bütün fəsillərdə piyada qət etmək deməkdir. Bütün bu çətinliklərə baxmayaraq, poçtalyonun məsuliyyəti sayəsində hər iki kəndin əhalisi pensiya və müavinətlərini vaxtlıvaxtında alır.

Filmin rejissorunun tərcümeyi-halı da marağımızı doğurdu. İbadulla Adjibayev ixtisasca həkimdir, həmçinin kinoemalatxana təhsili görüb, mətbuat sahəsində çalışır, təsviri sənətlə maraqlanır, musiqi əsərləri də bəstələyir. Çəkdiyi sənədli filmlər bir çox festivallarda iştirak edib.

Ümumiyyətlə, III "Qorqud Ata" Türk Dünyası Film Festivalının doğurduğu təəssürat çox fərqlidir; filmlər, onların yaradıcıları, ərsəyə gətirdikləri işlər kimi. Bütün hallarda ən parlaq təəssürat festivalın özüdür – festival varsa, filmlər çox, təəssürat isə bol olacaq...

**Samirə Behbudqızı**

## Xatirə təqvimi — 18–20 oktyabr

### Azərbaycan

**18 oktyabr 1926** – Teatr rejissoru, pedaqoq Nəsir Müseyib oğlu Sadıqzadə (1926-1996) Şuşada anadan olub. Akademik Dram, Gəncə, Sumqayıt və b. teatrlarda çalışıb, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. Filmlərdə ("Qətl günü", "Bəxt üzüyü" və s.) çəkilib.

**18 oktyabr 1949** – Tanınmış rejissor, aktyor, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu (Həsənov; 1949 – 12.5.2011) Bakının Mərdəkan qəsəbəsində doğulub. Musiqili Komediya, Milli Dram teatrlarında tamaşalar hazırlayıb. 1989-cu ildə Yuğ teatrını yaradıb. Filmlərdə çəkilib: "Qəm pəncərəsi", "Otel otağı" və s.

**19 oktyabr 1898** – Tanınmış ədəbiyyatşünas alim, Əməkdar elm xadimi, akademik Feyzulla Qasımzadə (1898 – 29.3.1976) Bakıda anadan olub.

**19 oktyabr 1932** – Əməkdar incəsənət xadimi, rəssam Sara Məmmədağa qızı Manafova (1932 –13.8.2007) Bakıda anadan olub. Füzulinin "Leyli və Məcnun" poemasına triptix, "Xocalı faciəsi. Haray" və s. tabloların müəllifidir. Əsərləri Moskvada Şərq Xalqları İncəsənəti Muzeyində saxlanılır.

**19 oktyabr 1962** – Əməkdar rəssam, heykəltaraş Seyfəddin Əli oğlu Qurbanov (1962 – 16.11.2021) Naxçıvan MR Şərur rayonunun Siyaqut kəndində doğulub. Ukraynada yaşayıb, bu ölkənin Xalq rəssamı adına layiq görülüb. İmadəddin Nəsiminin Kiyevdə ucaldılan (2019) heykəlinin müəllifidir.

**19 oktyabr 1972** – Opera müğənnisi, Xalq artisti Fatma Səttar qızı Muxtarova (26.3.1893 – 1972) vəfat edib.

**19 oktyabr 1995** – Prezident Heydər Əliyev görkəmli müğənni, SSRİ Xalq artisti, dövlət mükafatları laureatı Rəşid Behbudovun anadan olmasının 80 illiyi haqqında sərəncam imzalayıb.

**19 oktyabr 2005** – Prezident İlham Əliyev görkəmli xalçaçı-rəssam Kamil Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalayıb.

**20 oktyabr 1905** – Yazıçı Leo (Lev) Abramoviç Nusenbaum (Nussimbaum; 1905 – 27.8.1942) Bakıda anadan olub (bəzi mənbələrə görə, Kiyevdə doğulub, bir yaşında ikən ailəsi Bakıya köçüb). 1920-ci ilədək Azərbaycanda yaşayıb, sovetləşmədən sonra Avropaya mühacirət edib. Məhəmməd Əsəd bəy, Qurban Səid təxəllüsləri ilə yazıb. "Əli və Nino" romanı ilə şöhrət qazanıb, tarixi mövzuda 20-dək əsərin müəllifidir.

**20 oktyabr 1906** – Əməkdar artist İbrahim Ağahüseyn oğlu Hüseynov (Şünasi; 1906-1961) Bakıda doğulub. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb.

**20 oktyabr 1910** – İlk azərbaycanlı qadın teatr rəssamlarından biri İzzət Əli qızı Seyidova (1910 – 30.11.1973) anadan olub. Leninqrad Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunda oxuyub, 1938-ci ildən Akademik Opera və Balet Teatrında fəaliyyət göstərib.

**20 oktyabr 1913** – Tanınmış şair, respublika Dövlət mükafatı laureatı Əhməd Cəmil (Əhməd Səttar oğlu Cəmilzadə; 1913 – 27.9.1977) İrəvanda doğulub. Ədəbi nəşrlərə rəhbərlik edib. Rus, Ukrayna, gürcü, belarus, özbək şairlərinin əsərlərini Azərbaycan dilinə tərcümə edib.

**20 oktyabr 1917** – Xalq artisti, opera müğənnisi İdris Fərhad oğlu Ağalarov (1917 – 4.5.1975) Tiflisdə doğulub. 1937-ci ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**20 oktyabr 1922** – Xalq artisti, müğənni Şövkət Feyzulla qızı Ələkbərova (1922 – 7.2.1993) anadan olub. Məlahətli səsi ilə Azərbaycan musiqisini dünyanın bir sıra ölkələrində tanıdıb. Bülbül adına Orta ixtisas musiqi məktəbində dərs deyib.

**20 oktyabr 1995** – Əməkdar artist Mustafa Hüseyn oğlu Sərkarov (1905-1995) vəfat edib. Gəncə Dram Teatrında aktyor, truppa müdiri işləyib.

### Dünya

**18 oktyabr 1859** – Fransız filosofu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1927) Anri Berqson (Henri-Louis Bergson; 1859-1941) anadan olub. Əsərləri: "Yaradıcılıq təkamülü", "Materiya və yaddaş".

**18 oktyabr 1926** – Amerika müğənnisi və bəstəkarı, rok-n-rollun ilk ifaçılarından biri Çak (Çarlz) Berri (Charles Edward Anderson Berry; 1926-2017) anadan olub.

**19 oktyabr 1899** – Qvatemala yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1967) laureatı Migel Anxel Asturias (Miguel Angel Asturias; 1899-1974) anadan olub. Əsərləri: "Senyor prezident", "Dəfn olunmuşların başçısı" və s.

**20 oktyabr 1854** – Fransız şairi, poeziyada simvolizmin banilərindən biri Artur Rembo (Jean Nicolas Arthur Rimbaud; 1854-1891) anadan olub.

**20 oktyabr 1919** – Başqırd şairi Mustay (Mustafa) Kərim (1919-2005) anadan olub.

**Hazırladı: V.Orxan**

# Polşanın tanınmış nəşriyyatı Azərbaycanla əməkdaşlığı genişləndirmək istəyir

## Adam Marşalek Bakıda görüşlər keçirib



Polşanın tanınmış nəşriyyatlarından olan "Marşalek Publishinq Group"un rəhbəri professor Adam Marşalek Bakıya səfər edib. Qonaq Bakı Slavyan Universitetində (BSU), Azərbaycan Milli Elmlər Akademiyasında, Azərbaycan Dillər Universitetində görüşlər keçirib, BSU-da "Müəllim hazırlığının təlim və tədris məsələlərinə həsr olunmuş" beynəlxalq elmi-praktik konfransda iştirak edib.

BSU-da keçirilən görüşdə rektor Anar Nağıyev universitetdə Polşa Tədris-mədəniyyət mərkəzi, polyak dilinin tədrisi barədə danışıb, BSU-nun müəllim və tələbələrinə dəstəyinə görə Adam Marşalekə minnətdarlığını bildirib. Qeyd edib ki, BSU-nun tədqiqatlarının beynəlxalq elmmetrik bazalara çıxarılması əsas məqsədlərdəndir.

Adam Marşalek BSU-da olmaqdan məmnunluğunu ifadə edib, budəfəki gəlişinin məqsədinin ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi olduğunu bildirib.

Görüşdə Azərbaycan və polyak tədqiqatçılarının birgə beynəlxalq layihələrdə iştirakının vacibliyi vurğulanıb.

Adam Marşalekin AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ilə görüşündə də azərbaycanlı alimlərin tədqiqatlarının beynəlxalq nəşrlərdə yayılması ilə bağlı fikir mübadiləsi aparılıb.

İsa Həbibbəyli akademiyada aparılan elmi-tədqiqat işləri arasında Polşa ədəbiyyatına aid araşdırmaların da olduğunu diqqətə çatdırıb, AMEA-nın nəşriyyatı və müvafiq elmi qurumları ilə "Marşalek Publishinq Group" şirkəti arasında təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini qeyd edib.

Adam Marşalek də öz növbəsində çap etdikləri elmi jurnallarda Azərbaycan alimlərinin araşdırmalarına da yer verə biləcəklərini xüsusi vurğulayıb, Polşada təşkil olunacaq elmi konfransa Azərbaycan alimlərini də dəvət edib.

# Bakıda Şimali Kiprin mədəniyyət və tanıtım günləri təşkil edilib

## ŞKTC Prezidenti Ersin Tatar bu münasibətlə ölkəmizə səfər edib



Xəbər verildiyi kimi, Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar oktyabrın 12-dən 16-dək Azərbaycanda olub. Bu, Şimali Kipr rəhbərinin ölkəmizə ilk səfəridir.

Ersin Tatarın səfəri əsnasında 13-14 oktyabr tarixlərində Bakıda Şimali Kiprin mədəniyyət və tanıtım günləri təşkil edilib. ŞKTC Prezidenti bir sıra görüşlər keçirib, tədbirlərə qatılıb.

Oktyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev ŞKTC rəhbərini qəbul edib. Görüşdə Azərbaycanla Şimali Kipr arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

Oktyabrın 13-də Prezident Ersin Tatarın iştirakı ilə Bakıda Şimali Kiprin mədəniyyət və tanıtım günlərinin açılışı olub. Mərasimə Türkiyənin Bakıdakı səfiri Cahit Bağcı, Şimali Kiprin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Arca Turganer və digər rəsmilər qatılıb.

Ersin Tatar çıxış edərək Kipr türk xalqının böyük türk millətinin ayrılmaz bir parçası olduğunu vurğulayıb. O, Azərbaycana səfərinin ölkəsinin gələcəyi üçün faydalı olacağına inandığını bildirib: "Biz taleyi bir, keçmişi bir, qəlbi bir olan eyni millətin övladlarıyıq. Adət-ənənələrimiz, mədəniyyətlərimiz, milli dəyərlərimiz birdir. Azərbaycanı hər zaman ana vətənimiz Türkiyə Cümhuriyyətinin yanında qəbul etmişik".

Ersin Tatar ölkələrimiz arasında əlaqələrdə yeni bir mərhələnin başlanmasına görə Azərbaycan rəhbərliyinə təşəkkürünü bildirib, mədəniyyət və tanıtım günlərinin bu əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəyini deyib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı Azərbaycan torpaqları azadlığa qovuşub. Azərbaycan dövlətinə və xalqına bundan sonra sülh, əmin-amanlıq və gözəl həyat arzu edirəm. Bizlər bir-birimizin gözünə baxarkən ürəyimizdən keçənləri oxuyuruq. Can Azərbaycanla əlaqələrimiz mədəni, ticarət, təhsil və başqa sahələrdə daha da inkişaf edəcək. Biz böyük Türk dünyasının övladlarıyıq. Türk dünyasının bir-birinə daha da yaxınlaşması, qardaşlıq bağlarının möhkəmlənməsi üçün yeni böyük addımlar atılacaq".



Sonra Şimali Kiprin təhsil, turizm, inşaat, hotelçilik və digər sahələrini əhatə edən stendlərə baxış keçirilib. Şimali Kiprin İskele Bələdiyyəsi xalq oyunları qrupunun maraqlı rəqs nömrələri tədbirə rəng qatıb.

Oktyabrın 14-də Bakıda Şimali Kiprin mədəniyyət və tanıtım günləri çərçivəsində fotosərgi və Kipr türk geyimləri sərgisi təşkil olunub. Tədbirdə ŞKTC Prezidenti Ersin Tatar iştirak edib. Qeyd olunub ki, nümayiş olunan fotolar müxtəlif dövrlərdə Şimali Kiprdəki həyatı əks etdirir. Sərgidə rəsm əsərləri, Şimali Kiprə məxsus geyimlər nümayiş etdirilib, milli rəqslər ifa olunub.

Oktyabrın 15-də Ersin Tatar rəhbərlik etdiyi nümayəndə heyəti ilə İçərişəhərdə olub. Qonaqlara 2000-ci ildən UNESCO-nun Dünya İrs Siyahısında yer alan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Ersin Tatar gəzinti zamanı sakinlərlə söhbət edib.

**Lalə**

# Zərflərimizdə "Şuşa-2023"dən xatirə

TÜRKSOY Daimi Şurasının Şuşa şəhərini 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan etməsi münasibətilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "Azərpoçt" MMC tərəfindən marka hazırlanıb.




Oktyabrın 14-də I Türk Dünyası Mədəniyyət Forumu çərçivəsində "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" poçt markasının "birinci gün zərfi"nin rəsmi möhürlənmə mərasimi keçirilib.

Markalara TÜRKSOY-un baş katibi Sultan Raev və Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tərəfindən möhür vurulub, imzalar atılıb.

"Azərpoçt"un şöbə müdiri Sitarə Hüseynova bildirib ki, buraxılış 1 markadan ibarət blok şəklində, 5000 tirajla hazırlanıb. Blokun üzərində "Şuşa-2023" loqosu, TÜRKSOY-a üzv ölkələrin bayraqları və Şuşanın atributları həkk olunub. Markadakı təsvirlərin müəllifi rəssam Orxan Qarayevdir.

Qeyd edək ki, 2022-ci ildə Şuşa şəhərinin 270 illik yubileyi ilə bağlı 21 növdə müxtəlif poçt markaları dövriyyəyə buraxılıb. Markaların üzərində Şuşanın tarixi, mədəniyyəti və görkəmli xadimləri ilə bağlı məlumat öz əksini tapıb. Bununla bağlı "Şuşa poçt markalarında" adlı kitab da nəşr olunub.

# ADMİU-da TÜRKSOY kafedrası açılıb

Oktyabrın 16-da TÜRKSOY-un baş katibi Sultan Raev və rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) olub.



Rektor Ceyran Mahmudova qonaqlara universitetin fəaliyyəti, tədris proqramı və beynəlxalq əlaqələri barədə məlumat verib.

Qonaqlar ADMİU-nun "Xəzər" tələbə xor kollektivinin və xalq çalğı alətləri orkestrinin ifasını dinləyiblər.

Görüş çərçivəsində ADMİU-nun 100, TÜRKSOY-un 30 illiyi münasibətilə universitetdə TÜRKSOY kafedrasının açılış mərasimi keçirilib və iki qurum arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Ceyran Mahmudova 30 illik yubileyini qeyd edən TÜRKSOY-un Türk dünyasının nüfuzlu təşkilatı kimi keçirdiyi önəmli tədbirlərdən, layihələrdən bəhs edib, bu tədbirlərdə ADMİU-nun da iştirakından məmnunluq duyduqlarını vurğulayıb. Rektor həmçinin TÜRKSOY-un 30 illik yubiley medalına layiq gördükləri üçün bir daha təşəkkürünü ifadə edib.



TÜRKSOY-un baş katibi göstərilən diqqətə və qonaqpərvərliyə görə universitet rəhbərliyinə təşəkkürünü bildirib, bu günlərdə Azərbaycan bayrağının Xankəndidə ucaldılması və Qarabağın tam azadlığı münasibətilə hər kəsi təbrik edib. 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olan Şuşaya səfərlərindən bəhs edən S.Raev bu əzəmətli şəhərin təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının mənəviyyat mərkəzi, qürur yeri olduğunu vurğulayıb.

Mərasimdə TÜRKSOY müstəvisində teatr sahəsində əməkdaşlığın qurulmasında mühüm xidmətləri olan ADMİU-nun kafedra müdiri Əməkdar incəsənət xadimi, professor İsrafil İsrafilova təşkilatın 30 illik yubiley medalı təqdim olunub.

# Azərbaycan filmi Avstriyada festivalda nümayiş olunub

"Ultra" Production"un istehsalı olan "Məhvolma" qısametrajlı bədii filmi Avstriyada festivalda nümayiş olunub. 5-ci Lints Beynəlxalq Qısametrajlı Film Festivalında (Linz İCFF, 4-8 oktyabr) təqdimat ekran əsərinin Avropa premyerası olub.

Filmdəki hadisələr rəssam qız, qəflətən onun həyatına girən oğlan və hadisəni araşdıran polis arasında baş verir. Yaralı oğlan özünü rəssamın emalatxanasına atır. Rəssam qız ona kömək etməyə çalışır. Bu vaxt hadisə yerinə polis gəlir...

Filmin rejissoru və ssenari müəllifi İqor Smola, quruluşçu operatoru Natiq Hüsiyev, rəssamı Aysel Əmirova, prodüserləri Emil Nəcəfov, Elvin Adıgözəl, İqor Smola və Yekaterina Bordaçovadır. Rollarda Vüsalə Ağayeva, Asiman Ağa Rövşən, Rahib Məmmədzadə, Nurlan Həsənli çəkiliblər.

Qeyd edək ki, "Məhvolma" bundan öncə Cənubi Koreya, Çin, ABŞ və Qırğızıstanda festivallarda göstərilib.

# Suqovuşan turizm mərkəzinə çevrilir

Üç il əvvəl Vətən müharibəsində qələbə sorağını aldığımız ilk yerlərdən olan Suqovuşan qəsəbəsi turizm mərkəzinə çevrilir.



Oktyabrın 16-da Dövlət Turizm Agentliyi (DTA) kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni salınmış istirahət parkına mediatur təşkil edib.

DTA sədrinin müavini Azadə Hüseynova media nümayəndələrinə məlumat verib ki, 1970-ci illərdə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarının ətrafında park yaradılıb, sahilboyu gəzinti cığırları salınıb, oturacaqlar, söhbətgahlar, uşaqlar üçün əyləncə meydançası, idman qurğuları quraşdırılıb. Ərazisi 7,5 hektar olan parkda turist informasiya mərkəzi, kafe, üzən estakada, turistlərə xidmət göstərəcək nəqliyyat vasitələri üçün avtodayanacaq da yaradılıb, yaşıllaşdırma işləri görülüb.

Qeyd edilib ki, Suqovuşanda turizm infrastrukturunun yaradılması prosesinin ikinci mərhələsində yeni körpünün inşası, tarixi körpünün, mövcud Bayraq meydanının parka adaptasiyası həyata keçiriləcək, genişmiqyaslı abadlıq işləri görüləcək.

Xatırladaq ki, Suqovuşan qəsəbəsi Azərbaycan Ordusunun Zəfər yürüşü nəticəsində 2020-ci il oktyabrın 3-də azad edilib. Suqovuşan istirahət parkının təməli 2022-ci il martın 20-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Tərtər rayonuna səfəri zamanı Suqovuşan qəsəbəsində istirahət parkının açılışında iştirak edib, yaradılmış turizm infrastrukturu ilə tanış olub.




## Olaylar, faktlar (17–19 oktyabr)

### 156 il əvvəl...

**18 oktyabr 1867-ci ildə** Rusiyadan satın alınan Alyaska rəsmən ABŞ-nin ərazisi elan edilib. Rusiya İmperiyası Senatı həmin ilin 30 martında imzalanmış müqaviləni təsdiq etdikdən sonra müvafiq protokol ABŞ rəsmilərinə təqdim edilib. Alyaska (1,5 milyon kvadrat kilometr) o dövr üçün böyük məbləğ sayılan 7,2 milyon dollara (qızılla) ABŞ-yə satılmışdı. Məsələ ABŞ Konqresində müzakirə olunarkən bir sıra qanunvericilər təşəbbüsün müəllifi olan dövlət katibi Vilyam Struvardı ölkənin vəsaitini "nəhəng buzlağa görə" israfda ittiham etmişdi. İllər sonra bu buzlaqların arasında zəngin neft yataqları aşkarlandı. 18 oktyabr ABŞ-də "Alyaska günü" kimi qeyd edilir.

### 112 il əvvəl...



**18 oktyabr 1911-ci ildə** Osmanlı ilə İtaliya arasında Liviya uğrunda gedən müharibənin başa çatmasına dair sülh sazişi imzalanıb. Osmanlı paytaxt Tripoli də daxil olmaqla Liviyanın bir hissəsini İtaliyanın nəzarətinə keçməsinə razılaşıb, İtaliya isə Aralıq dənizindəki Dodekan (On iki ada) adalarını Osmanlıya verib. Lakin Osmanlının zəif düşdüyü bu zamanda adalara nəzarəti Yunanıstan ələ keçirib.

### 102 il əvvəl...

**18 oktyabr 1921-ci ildə** RSFSR tərkibində Krım Muxtar Sovet Sosialist Respublikası (mərkəzi Simferopol şəhəri) yaradılıb. 1944-cü ildə Krım tatarları Orta Asiyaya sürgün edildi, bir il sonra vilayətin muxtariyyət statusu ləğv edildi. 1954-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanına (19 fevral) əsasən, Krım Ukrayna SSR-ə verildi. Krım tatarlarının çoxu isə öz torpaqlarına dönə bilmədi. 2014-cü ildə Rusiya Krımda əksəriyyət təşkil edən rus əhali arasında referendumu əsas götürərək Krımı ilhaq etdi.



### 32 il əvvəl...

**18 oktyabr 1991-ci ildə** Azərbaycan Parlamenti – Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edib. Konstitusiya Aktı Azərbaycanın müstəqilliyini bərpa etməsi barədə Ali Sovetin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinin davamı olaraq qəbul olunub. 6 fəsildən ibarət sənədin preambulasında Azərbaycan Respublikasının 1918-1920-ci illər Xalq Cümhuriyyətinin varisi olduğu, Konstitusiya Aktının Azərbaycan Milli Şurasının 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə əsaslandığı vurğulanırdı. "Müstəqillik Günü" haqqında Azərbaycan Respublikasının Qanununa (15 oktyabr 2021-ci il) əsasən, 18 oktyabr Müstəqilliyin Bərpası Günü elan edilib.

Eyni gündə Prezident Ayaz Mütəllibov şəhər və rayonlarda icra hakimiyyəti başçısı vəzifəsinin təsis edilməsi barədə fərman verib.

***

**19 oktyabr 1991-ci** ildə erməni silahlı dəstələri Dağlıq Qarabağda azərbaycanlı əhaliyə qarşı daha bir terror aktı törədib. Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında minik avtomaşınının partladılması nəticəsində 3 nəfər həlak olub, 2 nəfər yaralanıb.

### 18 il əvvəl...

**17 oktyabr 2005-ci ildə** Azərbaycanda parlament seçkiləri (6 noyabr) ərəfəsində müxalifət qüvvələrinin ("Azadlıq" bloku) "narıncı inqilab"a başlamaq cəhdləri iflasa uğrayıb. İflasın ardınca siyasi prosesləri körükləmək istəyən hakimiyyətdaxili qüvvələr də ifşa olunub. Bir neçə yüksək vəzifəli şəxs (iqtisadi inkişaf naziri Fərhad Əliyev, səhiyyə naziri Əli İnsanov və s.) məsuliyyətə cəlb olunub.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2758
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641